RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 139 (8732) ÇƏRŞƏNBƏ, 7 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Aqrar islahatlar ərzaq idxalından asılılığımızı azaldır

## Azərbaycan ilə Qazaxıstanı xalqlarımızın ortaq tarixi və mənəvi dəyərlərindən qaynaqlanan dostluq və qardaşlıq telləri birləşdirir

### Qazaxıstan Respublikasının Birinci Prezidenti - Elbası zati-aliləri cənab Nursultan Nazarbayevə

Hörmətli Nursultan Abişeviç!

Ad gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Siz şərəfli bir ömür yolu keçərək Qazaxıstan Respublikasının rifahı, bugünkü səviyyəyə yüksəlməsi üçün var qüvvənizi sərf etmiş, ölkənizin beynəlxalq aləmdə layiqli yer tutmasına nail olmuş görkəmli dövlət xadimisiniz.

Azərbaycan ilə Qazaxıstanı xalqlarımızın ortaq tarixi və mənəvi dəyərlərindən qaynaqlanan dostluq və qardaşlıq telləri birləşdirir. Mən xalqlarımız və ölkələrimiz arasında bu əlaqələrin möhkəmləndirilməsi istiqamətində xidmətlərinizi yüksək qiymətləndirirəm. Eyni zamanda Türk Şurasının fəxri sədri kimi fəaliyyətinizi, türkdilli xalqlar arasında birliyin bərqərar olması naminə töhfənizi xüsusi qeyd etmək istəyirəm.

Atam Prezident Heydər Əliyevlə Sizin aranızda mövcud olmuş dərin hörmət və ehtiramı, səmimi dostluq münasibətlərini yüksək tutur, həmişə gözəl təəssüratlarla xatırlayıram.

Hörmətli Nursultan Abişeviç, bu əlamətdar gündə bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı naminə işlərinizdə daim uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2021-ci il*

## 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 30 (otuz) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2021-ci il*

## Bu il taxılımız da boldur

Azərbaycanda iqtisadiyyatın dinamik inkişaf edən sahələrindən biri də kənd təsərrüfatıdır. Başlıca səbəb dövlətin bu sahəyə verdiyi əhatəli dəstəkdir. Bircə misal: əgər əvvəllər ölkədə yalnız taxılçılıqla məşğul olan fermerlərə subsidiya verilirdisə, indi bu stimullaşdırıcı addım aqrar sektorun demək olar bütün sahələri üzrə atılır. Bununla yanaşı, fermerlərə bir çox digər güzəştlər də edilir.

Məlumdur ki, kənd təsərrüfatında məhsul istehsalının artımında əsas şərtlərdən biri su təminatıdır. Azərbaycan təbii su qaynaqlarına görə geniş imkanlara malik deyil. Su mənbələrinin əsas hissəsi ölkəmizdən kənarda formalaşır. Bir çox hallarda bizə süni problemlər də yaradılır. Xüsusilə işğal zamanı Ermənistanın bu istiqamətdəki çoxsaylı təxribatları məhsul istehsalının artımına mənfi təsir göstərirdi. Şükürlər ki, indi həmin problem Vətən müharibəsində qazanılan Zəfər sayəsində geridə qalmışdır.

Bundan əlavə, Şəmkirçay, Tovuzçay və Taxtakörpü su anbarları ölkəmizin içməli və suvarma suyuna olan tələbatının ödənilməsində müstəsna rol oynayır. Üstəlik, regionlarda çoxlu kiçik su anbarları yaradılır, çoxsaylı artezian quyuları qazılaraq istifadəyə verilir. Həmçinin mövcud, lakin yararsız hala düşən su kanalları və drenajları təmir olunur, kilometrlərlə yeni kanallar çəkilir. Bununla aqrar sektorun suya olan tələbatının ödənilməsində əsaslı dönüş yaranıb.

Torpaqlarımızın işğaldan azad edilməsi də, qeyd etdiyimiz kimi, ölkəmizin suya olan tələbatının yaxşılaşdırılmasına geniş imkanlar açır. Təsadüfi deyil ki, həmin torpaqlarda ilk həyata keçirilən infrastruktur layihələrindən biri də su mənbələrinin bərpasıdır.

*Ardı 5-ci səh.*

## «Sətti» neft-qaz sahəsində əməkdaşlığın daha bir səhifəsini açır

### Qazaxıstanın Azərbaycanda təkmilləşdirilən bu qazma qurğusu Xəzərdə fəaliyyət göstərəcək

Qazaxıstanın "Sətti" özüqalxan üzən qazma qurğusunun təkmilləşdirilməsi Bakıda, "Kaspian Drilinq Kompani Limited" MMC-də (KDK) sona çatıb. "Samruk-Kazına" Milli Rifah Fondu və "KazMunayGaz" Milli Şirkəti nümayəndə heyətlərinin Azərbaycana bu ayın əvvəlindəki işgüzar səfərlərinin məqsədi də "Sətti"nin təkmilləşdirilməsi ilə bağlı işlərlə tanış olmaq idi. Bu səfər həmçinin neft-qaz sahəsində birgə cari layihələrin icrası barədə müzakirələrin aparılması və gələcək əməkdaşlıq imkanlarının araşdırılması məqsədini daşıyırdı.

"Sətti" qurğusu Qazaxıstan "KMG Drilling and Services" MMT-yə məxsusdur. 2019-cu ilin yanvar ayında SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və "KazMunayGaz" arasında imzalanmış memoranduma, eləcə də həmin ilin fevralında "Kaspian Drilinq Kompani Limited" MMC və "KMG Drilling and Services" MMT arasında bağlanmış müqaviləyə əsasən, bu qurğu KDK-nin etibarlı idarəetməsinə verilib.

*Ardı 5-ci səh.*



## Ermənistan ekoloji terroru Almaniya şirkəti ilə birlikdə törədir

44 günlük Vətən müharibəsindəki şanlı qələbədən sonra Azərbaycan işğaldan azad edilmiş ərazilərdəki erməni vandallığını dünyaya nümayiş etdirməkdədir. Təkcə şəhər və kəndlərimiz, dini və tarixi abidələrimiz deyil, təbiətimiz də erməni terroru ilə üz-üzə qalıb.

Bu gün də ermənilər çirkin əməllərini davam etdirməkdədirlər. Ermənistan tərəfindən Zəngilan rayonu ərazisindən keçən Oxçuçayın çirkləndirilməsi, çay hövzəsinin flora və faunasının məhv edilməsi bunu təsdiqləyən reallıqdır. Artıq məsələ ölkədə geniş rezonans və ictimai narazılıq doğurub.

Oxçuçay Arazın sol qoludur. Ermənistanın Qafan rayonu və Azərbaycanın Zəngilan rayonu ərazisindən keçir. Uzunluğu 85 kilometr, hövzəsinin sahəsi 1140 kilometrdir. Başlanğıcını Zəngəzur silsiləsinin Qapıcıq dağından götürür. Çayın bir hissəsi Ermənistanın Sünik vilayətindən keçir. Bu çayın dağ-mədən sənayesinin tullantıları ilə çirkləndirilməsi hazırda fəlakət həddinə çatıb.

*Ardı 3-cü səh.*



◆ Qarabağ söhbətləri

## İLHAM ƏLİYEV Kəlbəcəri dünyanın möcüzəsinə çevirəcək



**İlahi, hara getmişdi bu el-oba, hayana üz tutmuşdu kəndin camaatı... Görəsən, bəs onun ailəsi, ata-anası, bacı-qardaşı necə olmuşdu?!**
**Gənc Qurban onlardan bir soraq almaq ümidilə həyəcanla ətrafa baxır, qonşu həyətlərə, evlərə bir-bir göz gəzdirirdi.**
**Lakin kənddə heç kim yox idi... Bomboş küçələrdə yiyəsiz qalmış evlərin, sahibsiz mal-qaranın, qoyun-quzunun mələrtisi qılınc kimi kəsən çovğunun vıyıltısına qarışaraq adamın qəlbini parçalayır, tüklərini ürpədirdi...**

Ərşə dirənən ah-nalə, fəryad səsləri lap yaxınlıqdan gələn aramsız atəş səslərinə, vahiməli top, tüfəng, bomba səslərinə qarışmışdı. Sanki qiyamət qopmuş, göy də, yer də lərzəyə gəlmişdi...

Kəlbəcər dağları od tutub yanırdı, şəhərin özündən, onun kəndlərindən, meşələrindən səmaya alov dilləri qalxırdı, qapqara tüstü burumları asimana hücum çəkirdi. Göylər daha böyük qəzəblə şaxtalı-qarlı çovğunu yerə çırpırdı...

Bu qiyamət günündə Murovun sərt aşırımlarına doğru üz tutan qəm karvanı qocaman bir eli Kəlbəcərdən alıb aparırdı. Şəhər uzaqlaşdıqca ürəklər bu ayrılığa tab gətirmir, məşum mənzərədən parça-parça olurdu...

Qəhər boğazında düyünlənmişdi, hönkürmək, bu haqsızlığa görə fələyin oyunlarına üsyan etmək istəyirdi, amma bacarmırdı, gözyaşları içinə axırdı.

27 ildən çox müddətdə içərisinə dolan gözyaşı ağır daş olub qəlbindən asılıb qalmışdı...

Onda hələ 1993-cü il aprelin 2-si idi...

### Kəlbəcərin "qonaq bayramı"

...Gilas ağaclarının muncuq-muncuq sırğaları ilə öyündüyü yay fəsli yetişəndə sanki Kəlbəcərin möcüzəli təbiəti də insanları kimi, qonaq-qara qarşılamaq üçün sevinirdi. Ötən quşların cəh-cəhi zümrüd meşələri başına götürər, şəlalələr şövqlə çağlayar, yamyaşıl çəmənlərdə minbir rəngli güllər açardı. Bir gün görərdin dağların döşü qıpqırmızı laləyə bürünüb, gah da baxardın xallı nərgiz günəşə meydan oxuyur, al-əlvan maralgülü sanki xallı kəpənəklərlə gözəllik yarışına girib...

Bütün Kəlbəcər elində olduğu kimi, Nadirxanlıda Rza kişinin evində, ailəsində, həyətində də yaxınlaşan "qonaq bayramı"nın ab-havası yaşanardı...

*Ardı 4-cü səh.*

## Vaksinasiya yalnız qorunmaq üçün deyil

### COVID-19 infeksiyasının dünyadan təcrid edilməsi üçün vacib olan peyvəndləmə həm də sosial məsələdir

Pandemiya! Son iki ilə yaxındır ki, bu söz artıq hər kəsin "dilinin əzbəri"dir. Epidemiyadan pandemiyaya keçdikdən sonra onunla mübarizənin forma və üsulları haqqında düşünmək belə çətin idi. Çünki mənşəyi, yaranma və yayılma səbəbi, müalicəsi haqqında hətta tibb işçilərinin belə təsəvvürləri yox idi. Buna görə də hamı çaş-baş idi: "kimə inanasan, kimdən öyrənəsən, bu bəladan necə yaxa qurtarasan" kimi suallar insanları rahat buraxmırdı.

Artıq bunlar arxada qalan dövr üçün aktual hesab edilə bilər. Bu gün COVID-19 koronavirus pandemiyasından xilas olmağın ən vacib üsulu hesab edilən peyvəndləmə özünün daha çox dərk edilən mərhələsindədir.

Dünyanı çənginə alan pandemiyadan zərər çəkənlərin sayı artıq milyonlarla sayılır. Yoluxmalar, ölənlər və sağalanların hər gün verilən statistik hesabatları göstərir ki, deyəsən pandemiyadan birdəfəlik xilas olmaq üçün vaxtilə tək-tək atılan addımlar bu gün kütləvi hal alır.

*Ardı 6-cı səh.*



# 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardım ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardım ödənilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə 5 200 000 (beş milyon iki yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2021-ci il*

# 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində kənd təsərrüfatına dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində kənd təsərrüfatına (kənd təsərrüfatı məhsulları, texnika, əkin sahələri, mal-qara və s.) dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə 1 400 000 (bir milyon dörd yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2021-ci il*

# 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə və dövlətə məxsus nəqliyyat vasitələrinə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə və dövlətə məxsus nəqliyyat vasitələrinə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə 5 400 000 (beş milyon dörd yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2021-ci il*

# Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç.

Kamçatkada An-26 təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına səmimi-qəlbdən başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2021-ci il*

# Baş nazir Əli Əsədov Rusiyanın səhiyyə naziri Mixail Muraşko ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 6-da Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə səhiyyə sahəsində əməkdaşlıq və tibbi kadrların hazırlığı sahəsində əməkdaşlıq daxil olmaqla, Azərbaycan-Rusiya münasibətlərinin bütün istiqamətlər üzrə uğurlu inkişafı məmnunluqla qeyd edilib.

Həmçinin koronavirus pandemiyasına qarşı mübarizə məqsədilə hər iki ölkədə görülən tədbirlərə dair fikir mübadiləsi aparılıb.

# YAP Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə keçirilən sammitdə təmsil olunub






İyulun 6-da Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə Çin Kommunist Partiyası və Dünya Siyasi Partiyalarının videokonfrans formatında sammiti keçirilib.

Yeni Azərbaycan Partiyasının (YAP) Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "Xalqın xoşbəxtliyi naminə: siyasi partiyaların məsuliyyəti" mövzusunda keçirilən sammitdə xalqların rifahının və ölkələrin inkişafının təmin olunmasında siyasi partiyaların rolundan bəhs olunub.

Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Si Cinpin tədbirdə iştirak edib və nitq söyləyib. Sammitdə həmçinin müxtəlif ölkələrin aparıcı siyasi partiyalarının rəhbər şəxsləri çıxış ediblər.

YAP sədrinin müavini Əli Əhmədovun mövzu ilə əlaqədar videoçıxışı da sammitin onlayn platformasında yerləşdirilib.

Onlayn sammitdə YAP-ın Mərkəzi Aparatı, Veteranlar Şurası və Gənclər Birliyinin 80-dən artıq nümayəndəsi iştirak edib.

Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min də sammitə qoşulub. Sammit müddətində fəaliyyət göstərən onlayn platformada siyasi partiya liderlərinin mövzuya dair video və yazılı şərhləri yerləşdirilib.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında səmərəli, qarşılıqlı faydalı və çoxşaxəli əlaqələr mövcuddur. Yüksəksəviyyəli əlaqələr fonunda hakim partiyalar arasında qarşılıqlı səfərlərin təşkil olunması və təcrübə mübadilələrinin aparılması münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıyır. 2019-cu ildə Çinin paytaxtı Pekində YAP və Çin Kommunist Partiyası arasında əlaqələrin qurulmasının 20 illiyi münasibətilə konfrans keçirilib. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın dərinləşdirilməsi iki ölkə münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə verəcək.

Tədbir çərçivəsində YAP Mərkəzi Aparatının foyesində Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə sərgi keçirilib.

# Serbiyanın əmək, məşğulluq, veteranlar və sosial işlər nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olub

Azərbaycanda səfərdə olan Serbiya Respublikasının əmək, məşğulluq, veteranlar və sosial işlər naziri Darija Kisiç Tepavçeviçin başçılıq etdiyi nümayəndə heyəti ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev Azərbaycan-Serbiya əlaqələrinin strateji xarakter daşıdığını, iki ölkənin dövlət başçılarının bu əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini, 2013-cü ildə ölkələrimiz arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamənin, 2018-ci ildə imzalanmış strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının əlaqələrin inkişafına imkan yaratdığını deyib. Ticarət və iqtisadi əməkdaşlığın yüksələn xətlə davam etdiyini, ticarət dövriyyəsində ildən-ilə artımın olduğunu, 2021-ci ilin yanvar-may aylarında da bu artımın 55,39 faiz təşkil etdiyini bildirib.

S.Babayev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində əldə etdiyi tarixi Zəfəri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistanın işğalından azad edildiyini diqqətə çatdırıb. Erməni təcavüzünün ağır nəticələri barədə məlumat verən nazir işğalçı Ermənistan tərəfindən dağıdılmış ərazilərimizdə aparılan böyük quruculuq işləri barədə məlumat verib. Həmin ərazilərin bərpası və yenidən qurulması prosesində dost ölkələrin iştirakının da ölkəmiz üçün prioritet olduğunu bildirib.

Azərbaycanın sosial müdafiə sistemindən bəhs edən S.Babayev ölkəmizdə sosial ödənişlərin artırılması, aktiv məşğulluq və sosial müdafiə proqramlarının genişləndirilməsi sahəsində atılan mühüm addımları diqqətə çatdırıb. Dövlət sosial xidmətlərinin innovativ yeniliklərin tətbiqi üzərində keyfiyyətinin yüksəldilməsi, proaktiv xidmətlərin qurulması istiqamətində əldə olunan uğurları qeyd edib və pandemiya dövründə ölkəmizdə həyata keçirilən iqtisadi və sosial dəstək tədbirlərini diqqətə çatdırıb.

Serbiya ilə əmək, məşğulluq, sosial təminat sahəsində əməkdaşlığın genişləndirilməsi və fəal təcrübə mübadilələri üçün böyük potensialın olduğunu vurğulayan nazir artıq bu sahədə qarşılıqlı fayda verəcək əməkdaşlıq sənədlərinin layihələrinin hazırlandığını qeyd edib.

D.K.Tepavçeviç Serbiyanın Azərbaycana olan dost münasibətini, ölkələrimiz arasında əlaqələrin strateji səviyyədə olmasının məmnunluq doğurduğunu vurğulayıb. Ölkəsinin Azərbaycanla bütün sahələrdə əlaqələrin genişlənməsinə xüsusi əhəmiyyət verdiyini, Serbiyanın Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini bildirib. Nazir əmək, məşğulluq və sosial müdafiə sahəsində ikitərəfli əlaqələrin inkişafında maraqlı olduqlarını deyib.

Görüşdə Serbiyanın sosial sahədə islahatlar təcrübəsi barədə məlumat verilib. İkitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün imzalanması nəzərdə tutulan "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində Anlaşma Memorandumu"nun və "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında Saziş"inin layihələri müzakirə olunub.

Həmçinin hərbi əməliyyatlar zamanı xəsarət almış şəxslərin, xüsusi qayğıya ehtiyac duyan uşaqların reabilitasiyası sahələrində görülən işlərə dair qarşılıqlı məlumat mübadiləsi olub.

Görüşün yekunu olaraq "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində Anlaşma Memorandumu" imzalanıb.

Keçirilən brifinqdə S.Babayev və D.K.Tepavçeviç imzalanan sənədin Azərbaycanla Serbiya arasında əlaqələrin artıq əmək, məşğulluq, sosial müdafiə sahələrini də əhatə etməklə daim genişlənməsinin növbəti bariz ifadəsi olduğunu vurğulayıb, qarşılıqlı faydalı əməkdaşlıq, uğurlu təcrübə mübadilələri üçün əsas yaratdığını vurğulayıblar.

# Səhiyyə və tibb elmi sahəsində əməkdaşlığa dair yenilənmiş saziş imzalanıb

Səhiyyə nazirinin birinci müavini, səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev iyulun 6-da Rusiyanın səhiyyə naziri Mixail Muraşkonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov görüşdə iştirak edib.



AZƏRTAC xəbər verir ki, görüşdə səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın 2001-ci il 18 iyun tarixli Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Rusiya Federasiyası Səhiyyə Nazirliyi arasında 16 maddədən ibarət "Səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq Sazişi" çərçivəsində həyata keçirildiyini bildirib.

Teymur Musayev ölkələrimiz arasında əməkdaşlığın uğurlu olmasını vurğulayaraq pandemiyaya qarşı mübarizədə göstərdiyi dəstəyə, koronavirus infeksiyasına qarşı testlər və "Sputnik V" vaksininin verilməsinə görə Rusiya tərəfinə minnətdarlığını bildirib.

Azərbaycan səhiyyə nazirinin birinci müavini ötən yay Rusiyanın səhiyyə naziri Mixail Muraşkonun ölkəmizə səfər etdiyini və yeni növ koronavirus infeksiyası sahəsində çalışan mütəxəssislər qrupunun gəldiyini xatırladıb. Onun sözlərinə görə, rusiyalı mütəxəssislərin dəyərli tövsiyələri respublikamızdakı epidemioloji vəziyyətin sabitləşməsinə öz töhfəsini verib.

Teymur Musayev həmçinin 2015-ci il sentyabrın 15-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının açılış mərasiminin olduğunu xatırladıb. O qeyd edib ki, Rusiyanın beynəlxalq reytinqdə ən yaxşı tibb universitetinin ilk filialının məhz Azərbaycanda açılması Prezident İlham Əliyevin uzaqgörən siyasəti və Azərbaycanın Birinci vitse-prezidenti, Seçenov Universitetinin məzunu və fəxri professoru Mehriban Əliyevanın təşəbbüsü sayəsində reallaşıb.

Öz növbəsində Rusiyanın səhiyyə naziri Mixail Muraşko qeyd edib ki, ölkələr arasında səhiyyə sahəsində əməkdaşlıq Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın qərarlarına uyğun olaraq həyata keçirilir. Rusiya Səhiyyə Nazirliyinin rəhbəri birinci buraxılışı bu il olmuş İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının fəaliyyətini xüsusi vurğulayıb.

Daha sonra Teymur Musayev və Mixail Muraşko "Səhiyyə və tibb elmi sahəsində yenilənmiş əməkdaşlıq Sazişi"ni imzalayıblar. Sənəd "Rusiya Federasiyası Səhiyyə Nazirliyi ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi arasında səhiyyə sektorunda əməkdaşlığın prioritet sahələrinin inkişafına dair 2021-2024-cü illər üçün Yol xəritəsi" barədə məlumatları özündə ehtiva edir.

Yol xəritəsi əməkdaşlıq sahələrini - infeksion və qeyri-infeksion xəstəliklər, tibb işçilərinin ixtisaslarının təkmilləşməsi, tədqiqat institutları arasında birbaşa əlaqələrin qurulması, elmi tibb müəssisələri və icmalar arasında əlaqələrin qurulması və sair əks etdirir.

Bundan əlavə, sənəddə tədbirlərin keçirilməsi - tibb və əczaçılıq inkişafı sahəsində məlumat mübadiləsi, prioritet sağlamlıq mövzularında seminarlar keçirərək mütəxəssis mübadiləsi və sair əks etdirilib.

Qeyd edək ki, Yol xəritəsi Rusiya Federasiyası Səhiyyə Nazirliyi və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən öz səlahiyyətləri çərçivəsində tərtib edilib. Sənəd Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 2021-ci il aprelin 27-də Moskvada imzalanmış 19-cu iclasının Protokolunu həyata keçirmək məqsədi daşıyır.

# İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının ilk məzunlarına diplomlar təqdim edilib

İyulun 6-da Bakıda İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının ilk məzunlarına diplomlar təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanda səfərdə olan Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko, Azərbaycan səhiyyə nazirinin birinci müavini, nazir səlahiyyətlərini müvəqqəti icra edən Teymur Musayev, təhsil naziri Emin Əmrullayev, Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və digər rəsmi şəxslər tədbirdə iştirak ediblər.

Azərbaycanın və Rusiyanın Dövlət himnləri səsləndirilib. Ali məktəbin tarixi və fəaliyyəti haqqında film nümayiş etdirilib.

Universitetin Bakı filialının rektoru, professor Əziz Əliyev bu ali təhsil ocağının yaranma tarixi barədə məlumat verib. Vurğulanıb ki, filial 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı və Birinci vitse-prezident, Seçenov Universitetinin məzunu Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılıb. Rektor bildirib ki, gələcək həkimlərin praktiki vərdişlərinin yaxşılaşdırılması və mütəxəssislərin təkmilləşdirilməsi məqsədilə filialın bazasında ən müasir yüksək texnoloji trenajorlar və kompüterləşdirilmiş manekenlərlə təchiz olunmuş Təlim-Simulyasiya Mərkəzi fəaliyyət göstərir.

Əziz Əliyev yüksəkixtisaslı həkimlərin hazırlanmasına daim hərtərəfli dəstək göstərilməsinə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkürünü bildirib. Rektor deyib ki, filialın ilk məzunları olan 87 nəfərdən 15-i bu adlı-sanlı ali məktəbi fərqlənmə diplomu ilə bitirib, onlardan üçü isə medalla təltif edilib.

Məzunları təbrik edən Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko bu böyük humanitar layihənin həyata keçirilməsinə görə Prezident Vladimir Putinə və Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Universitetin klinik bazasında, Seçenov Universitetinin Bakı filialının Təlim-Simulyasiya Mərkəzi ilə tanış olduğunu qeyd edən nazir bu ali məktəbdə yaradılmış şəraiti yüksək qiymətləndirib. M.Muraşko Bakı filialında tədris prosesinin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq deyib ki, məzunların təqribən 20 faizi fərqlənmə diplomu alıblar. Nazirin sözlərinə görə, Rusiyanın ən yaxşı ali məktəblərindən birinin aparıcı mütəxəssisləri öz bilik və vərdişlərini azərbaycanlı tələbələrlə bölüşüblər. M.Muraşko deyib: "Bu, informasiya texnologiyaları ilə işləmək, tibbi yardım göstərmək sahəsində klassik vərdişlərə malik olan, təhlil etməyi və müstəqil öyrənməyi bacaran tibb işçisinin yeni formatıdır".



Azərbaycan səhiyyə nazirinin birinci müavini, nazir səlahiyyətlərini müvəqqəti icra edən Teymur Musayev səhiyyə və tibb elmi sahələrində ölkələrimiz arasında əməkdaşlıq mövzusu üzərində ətraflı dayanıb. Qeyd edib ki, tibb sahəsində əməkdaşlıq pandemiya dövründə daha əyani şəkildə üzə çıxıb. Rusiya Azərbaycana diaqnostik testlər göndərib, 200 min doza "Sputnik V" vaksini verib. T.Musayev ali məktəbin məzunlarını və professor-müəllim heyətini təbrik edərək deyib: "Siz mürəkkəb pandemiya dövründə diplom alırsınız. Bu, çox məsuliyyətli, həm də şərəflidir". O əmin olduğunu bildirib ki, bugünkü məzunlar Azərbaycan təbabətinin inkişafına töhfə verəcək və tanınmış həkimlər olacaqlar.

Təhsil naziri Emin Əmrullayev İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Azərbaycanda fəaliyyət göstərən ilk xarici tibbi ali məktəb olduğunu qeyd edib. "Bu ali məktəb 6 illik fəaliyyəti dövründə Azərbaycanın təhsil sistemində layiqli yer tutub. Siz bu ali məktəbdə təhsil almaqla yüksək ixtisas qazanmışınız", - deyən nazir məzunları təbrik edib.

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko bildirib ki, bu filialın açılması "Rusiya ilə Azərbaycan arasında tarixi əlaqələr, dövlətlərimizin rəhbərlərinin siyasi qətiyyəti, bu layihənin ideya ruhlandırıcısı - bizim ali məktəbin məzunu, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sayəsində mümkün olub".

P.Qlıboçko məzunlara müraciətlə deyib ki, onlar gözəl tədris sinifləri və Təlim-Simulyasiya Mərkəzi ilə təchiz olunmuş bu ali məktəbdə oxumalarına görə həmişə fəxr edəcəklər.

Tədbirdə məzunlar Hippokrat andı içiblər.

Sonda İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının ilk məzunlarına təntənəli şəraitdə diplomlar təqdim edilib.

# Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin nümayəndələri Suqovuşana səfər ediblər

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nümayəndələri Suqovuşana səfər ediblər.



AZƏRTAC xəbər verir ki, İdarələrarası Mərkəzin nümayəndələri əvvəlcə Suqovuşan su anbarı və anbarın bəndində aparılan təmir işlərinə baxış keçiriblər.

Məlumat verilib ki, Suqovuşan bəndinin mexaniki avadanlığı, suburaxıcı qurğuları, senqment qapıları təmir edilir. Qurğunun təmir-bərpa işlərinin iki ay müddətində başa çatdırılması nəzərdə tutulur. Təmir işləri başa çatdıqdan sonra Tərtər, Bərdə, Goranboy, Yevlax, Ağdam rayonlarında əkin sahələrinin suvarılması təmin olunacaq.

Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin nümayəndələri sonra "Suqovuşan-1", "Suqovuşan-2" kiçik su elektrik stansiyalarına və 35/10 kilovoltluq elektrik yarımstansiyasına baxış keçiriblər. Bildirilib ki, gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında təmir-bərpa işləri başa çatıb. Test rejimində şəbəkəyə qoşularaq istifadəyə verilib. Bu stansiyalar Suqovuşan və Talış kəndlərinin enerji tələbatını ödəyəcək, eyni zamanda, "Azərişıq"ın 35/10 kilovoltluq yarımstansiya vasitəsilə elektrik enerjisi şəbəkəsinə qoşulacaq və gələcəkdə ümumi elektrik enerjisi təminatına töhfə verəcək.

# İdarələrarası Mərkəzin enerji təminatı və ekoloji məsələlər üzrə işçi qruplarının Ağdamda birgə iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Enerji təminatı məsələləri üzrə" və "Ekoloji məsələlər üzrə" işçi qruplarının iyulun 6-da Ağdam şəhərində birgə iclası keçirilib.



Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, Ağdam şəhərinə səfər çərçivəsində tikilməkdə olan "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına, məhv edilmiş təbiət abidəsi statusuna malik iki ədəd Şərq çinarı ağacına, həmçinin Tərtər rayonunda yerləşən "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarına, su anbarına və 35/10/2.5 kilovoltluq yarımstansiyaya baxış keçirilib.

İclasda Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində enerji infrastrukturunun bərpası və yenidən qurulması, enerji təminatına dair planlaşdırılan tədbirlər, həlli vacib məsələlər, həmçinin ekoloji mühitin qorunması, uzun illər ərzində yaranmış ekoloji problemlərin həlli, resurslardan səmərəli istifadənin təmin olunması və ekoloji təmiz texnologiyaların tətbiqi məsələləri müzakirə edilib.

İşğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "Yaşıl enerji zonası Konsepsiyası"nın tətbiqinə dair müzakirələr aparılıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 may tarixli 2620 nömrəli sərəncamından irəli gələn vəzifələrin icrasının gedişi ilə bağlı məlumat verilib. "Yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması ilə əlaqədar Yaponiyanın "TEPSCO" şirkəti tərəfindən hazırlanmış aralıq hesabat nəzərdən keçirilib.

Ağdam şəhərinin dayanıqlı və keyfiyyətli enerji ilə təminatı ssenariləri, eləcə də şəhərlərin enerji təminatında bərpaolunan enerjidən istifadə məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Qarabağda, o cümlədən Ağdamda relyefin və iqlimin xüsusiyyətləri, su ehtiyatları, əsas su fondu hesab olunan çay axınlarına dair məlumat verilib. İşğal dövründə digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da su təsərrüfatı infrastrukturunun tam dağıdıldığı, ekologiyaya ciddi ziyanların vurulduğu qeyd olunub. Qarabağ ərazisində yeraltı su ehtiyatlarından "yaşıl enerji" potensialı kimi istifadənin perspektivləri müzakirə olunub.

# YAP Gənclər Birliyi Ermənistan tərəfindən Oxçuçayda suyun çirklənməsi ilə əlaqədar bəyanat yayıb

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi Ermənistan tərəfindən Oxçuçayda suyun çirklənməsi ilə əlaqədar bəyanat yayıb. YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda Ermənistan tərəfindən Azərbaycana qarşı 30 ilə yaxın müddətdə aparılan işğal siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal altında olduğu qeyd edilib.

Bəyanatda həmçinin deyilir: "BMT-nin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına və bu işğalın dayandırılmasına dair 4 qətnaməsinin qəbul edilməsinə, Azərbaycanın münaqişənin sülh yolu ilə uzun illər həll olunmasına dair səy göstərməsinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətinə davam edirdi. İşğalçılıq siyasəti təkcə döyüş meydanında deyil, həm də Azərbaycana qarşı ekoloji terror aparılmaqla da həyata keçirilirdi. İşğal dövründə Azərbaycanın təbii zənginliklərlə dolu Qarabağ bölgəsi ciddi ziyana məruz qalmışdır. Meşələr yandırılmış, çaylar zəhərli tullantılarla çirkləndirilmişdir. 2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq Azərbaycan Ermənistanın təxribatlarına qarşı əks-hücum əməliyyatları keçirərək, 44 gün ərzində işğal altında olan torpaqlarını azad edərək öz ərazi bütövlüyünü bərpa etdi. Həmin ərazilər işğaldan azad edildikdən sonra ərazidə böyük quruculuq işlərinə başlanıldı, xüsusilə məhv edilmiş flora və faunanın bərpası istiqamətində ciddi işlər aparılır".

YAP Gənclər Birliyinin bəyanatında qeyd olunub ki, Ermənistan tərəfindən ciddi çirklənməyə məruz qalmış çaylardan biri də Azərbaycanın Zəngilan rayonunun ərazisindən keçən 83 kilometrlik uzunluğa malik olan Oxçuçaydır. Həmin çayın 47 kilometrlik hissəsi məhz Ermənistan ərazisindən keçir ki, bu da çayın çirklənməyə məruz qaldığı əsas yerdir. Burada fəaliyyət göstərən Zəngəzur mis-molibden zavodu çayın çirklənməsinin əsas səbəbkarıdır. Lakin buna baxmayaraq, şirkət bu məsuliyyətdən yayınmağa çalışır və həmin iddiaları qəbul etmir. Bir zamanlar əkinçilik məqsədləri üçün istifadə olunan və nadir balıq növlərinin olduğu bu çay indi yüksək səviyyədə çirklənməyə görə canlı aləmi məhv edir. Çayın suyu həddindən artıq zəhərli olduğuna görə burada heç bir canlı yaşamır və bu səbəbdən "ölü çay" adlanır.

"Zəngilan rayonu azad olunduqdan sonra ekoloqlar tərəfindən bu bölgədə ekoloji vəziyyətlə bağlı, xüsusilə Oxçuçayda suyun çirklənməsinə dair araşdırmalar aparılıb. 2021-ci ilin yanvar-mart aylarında sudan alınan nəticələr onu göstərir ki, burada yüksək miqdarda ağır metallar - mis, molibden, manqan, dəmir, sink və xrom vardır. Bu cür çirklənmə flora və faunaya ciddi zərər verməklə yanaşı, insan həyatına da xüsusi təhlükə yaradır. Suyun tərkibində qeyd olunan ağır metalların çoxluğu insan orqanizmində mədə-bağırsaq traktının pozğunluqlarından tutmuş böyrəklərdə və sümük toxumasında dağıdıcı proseslərlə bədənin ürək-damar, sinir və hematopoetik sistemlərinin pozulmasına qədər fəsadlara səbəb olur. Oxçuçaydan alınan nümunələr bir daha sübut edir ki, Zəngəzur mis-molibden zavodu bu çaya çirkli suyu təmizləmədən axıdır", - Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin bəyanatında deyilir.

Dünyada içməli suya tələbatın getdikcə artmasının xüsusi vurğulandığı bəyanatda daha sonra bildirilir: "BMT-nin məlumatına görə, dünya əhalisinin təqribən 2,2 milyard nəfəri təhlükəsiz idarə olunan içməli suya sahib deyil. 2040-cı ildə qlobal su tələbatı 50 faizdən çox arta bilər və 2050-ci ilə qədər ildə su çatışmazlığından əziyyət çəkən ərazilərdə yaşayan əhalinin sayı 5,7 milyard nəfərə çatacaq. Su ehtiyatlarının 70 faizinin qonşu ölkələrin ərazisindən keçərək gəldiyi Azərbaycan üçün şirin su məsələsi çox aktualdır. Lakin Ermənistanın Transsərhəd Su Axınlarına dair Helsinki Konvensiyasına qoşulmaması onun beynəlxalq hüquq qarşısında məsuliyyət daşımaqdan boyun qaçırmasına şərait yaradır. Bu beynəlxalq sənəd transsərhəd səth sularının və yeraltı suların ekoloji cəhətdən etibarlı idarə olunmasına və qorunmasına yönəlmiş milli tədbirlərin, beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün bir mexanizm rolunu oynayır.

YAP Gənclər Birliyi olaraq bütün beynəlxalq ictimaiyyəti, xüsusilə ətraf mühitlə bağlı təşkilatları Ermənistanın əməllərinə qarşı laqeyd qalmamağa çağıraraq beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı apardığı ekoloji terror əməllərini kəskin şəkildə pisləməli olduğunu deyib. 30 ilə yaxın Ermənistanın Azərbaycana qarşı işğal siyasəti milyonlarla azərbaycanlının taleyinə ciddi təsir edib, on minlərlə insan qətlə yetirilib, yüz minlərlə insan yaşayış yerlərindən məhrum olunub. Bu təcavüzün ekoloji müstəvidə davam etməsinə təsirsiz qalmaq bütün dünya ictimaiyyətini narahat etməlidir".

# Ağsaqqallar Prezident İlham Əliyevin islahatlar kursuna birmənalı dəstək verirlər

## Azərbaycan Ağsaqqallar Şurasının fəaliyyəti yeni mərhələyə qədəm qoyur

İyulun 6-da Azərbaycan Ağsaqqallar Şurasının ümumi iclası keçirilmişdir.



İclasda Azərbaycan Ağsaqqallar Şurasının iş planına uyğun olaraq respublikanın şəhər və rayonlarındakı yerli ağsaqqallar şuralarının 2021-ci ilin mart-iyun aylarında keçirilən hesabat-seçki konfranslarının yekunları müzakirə olunmuşdur. Bununla bağlı Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavinlərinin məlumatları dinlənilmişdir.

İclası açıq elan edən Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, iqtisad elmləri doktoru, professor Eldar Quliyev bildirib ki, Azərbaycan ağsaqqalları cəmiyyətimizdə gedən ictimai proseslərdə yaxından iştirak edir, ölkəmizin inkişafına, Prezident İlham Əliyevin yürütdüyü siyasətə, islahatlar kursuna birmənalı dəstək verirlər. Qeyd olunmuşdur ki, pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, Azərbaycan Ağsaqqallar Şurası qarşısında duran vəzifələri uğurla həyata keçirir, ölkənin ictimai həyatına öz töhfələrini verir. Rayon və şəhərlərdə yerli ağsaqqallar şuralarının hesabat-seçki konfransları pandemiya dövrünün tələblərinə uyğun şəkildə keçirilib.

Eldar Quliyev diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı tarixinin ən şərəfli dövrünü yaşayır: "44 günlük Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə torpaqlarımız müharibə yolu ilə azad olundu. Bu gün hər bir azərbaycanlı qalib və qəhrəman xalqın nümayəndəsi olması ilə fəxr edir".

Qeyd olunub ki, hazırda işğaldan azad olunmuş torpaqlarımızda genişmiqyaslı yenidənqurma işləri həyata keçirilir. Bu günlərdə Ermənistanın işğal dövründə Füzuli və Zəngilan rayonlarında basdırdıqları minaların xəritələrini Azərbaycana verməsi Prezident İlham Əliyevin növbəti böyük uğurudur. Eldar Quliyev deyib ki, bu, azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq işlərini daha da sürətləndirəcək. Ermənilərdən mina xəritələrinin alınması Qarabağda kommunikasiya xətlərinin yaradılması üzrə həyata keçirilən layihələrin də sürətlə icra edilməsinə səbəb olacaq.

İclasda ötən il vəfat edən Azərbaycan Ağsaqqallar Şurasının keçmiş sədri Fəttah Heydərovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Eldar Quliyev bildirib ki, Azərbaycan Ağsaqqallar Şurasının fəaliyyətinin daha da canlanmasında, onun ölkənin ictimai həyatında fəal rol oynayan quruma çevrilməsində Fəttah Heydərovun böyük xidmətləri olub.

2021-ci ilin mart-iyun aylarında keçirilən hesabat-seçki konfransları barədə danışan Eldar Quliyev qeyd edib ki, Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavinləri arasında bölgü aparılmış və onlar bölgələr üzrə yerli ağsaqqallar şuralarının konfranslarında iştirak etmişlər. Ümumilikdə işğaldan azad olunmuş rayonlar istisna olunmaqla, 77 şəhər və rayonda seçkilər keçirilib. Konfranslarda rayon (şəhər) Ağsaqqallar Şuralarının yeni Əsasnamələri qəbul edilib, yerli təşkilatlara sədr və İdarə Heyətinin, o cümlədən təftiş komissiyalarının üzvləri seçiliblər. Seçkilər azad və demokratik şəraitdə keçirilib. Yaxın vaxtlarda Azərbaycan Ağsaqqallar Şurasında bölgələr üzrə yerli ağsaqqallar şuralarının yeni seçilmiş sədrləri ilə görüşlər keçiriləcək, onların təklifləri dinləniləcək.

İclasda çıxış edən Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavinləri Əhliman Əmiraslanov, Eldar İbrahimov, Tahir Süleymanov, Vahid Novruzov, Elmira Süleymanova və Bayram Yusifov bildiriblər ki, respublikamızda tətbiq olunan karantin rejimi ilə əlaqədar olaraq kütləvi tədbirlər keçirilməsi məqsədəuyğun olmadığına görə konfranslar məhdud sayda nümayəndələrin iştirakı ilə gerçəkləşib. Hər bir konfransda Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavini, müvafiq rayon icra hakimiyyətinin rəhbərləri iştirak ediblər. Müzakirələr zamanı çıxış edənlər 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq işğal altında olan rayonların azad olunmasını təmin etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevə dərin təşəkkürlərini bildiriblər.

İclasda Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvləri Aqiyə Naxçıvanlı, Madər Musayev və Ziyad Səmədzadə də çıxış ediblər. Həm Ağsaqqallar Şurası sədrinin müavinləri, həm İdarə Heyətinin digər üzvləri ölkənin ictimai-siyasi həyatında ağsaqqalların fəal iştirakının vacibliyini qeyd edib, ağsaqqallar şuralarının qarşısında duran vəzifələrin uğurla yerinə yetirilməsi üçün təkliflərini irəli sürüblər.

Çıxış edənlər vurğulayıblar ki, xalqımızın mənəvi dünyasında, milli mentalitetində ağsaqqal sözünə, ağsaqqal xeyir-duasına həmişə böyük ehtiramla yanaşılıb. Ailə quranda, mübahisəli məsələlərin həllində ağsaqqal sözü həmişə keçərli olub. Ağsaqqallar el-obaya müdriklik təlqin edib, gənclərə məsləhətlər veriblər. Bu gün ağsaqqallarımızın əsas vəzifələri müasir gəncliyimizin sağlam ruhda formalaşmasına töhfə vermək və bunun üçün gənclərlə görüşlər keçirmək, cəmiyyətimizin inkişafı və rifahı üçün fəallıq göstərməkdir.

Çıxışlarda toxunulan məsələlərdən biri də yerli ağsaqqallar şuralarının səmərəli fəaliyyət göstərmələri üçün müvafiq iş yeri ilə təminatı barədə olub. Diqqətə çatdırılıb ki, hazırda rayon və şəhər ağsaqqallar şuralarının böyük əksəriyyəti yerlə təmin olunsalar da, bəzilərinin yerləri yoxdur. Səslənən təkliflərdən biri də rayon və şəhər ağsaqqallar şuralarının maliyyələşməsi barədə olub.

Çıxışlara yekun vuran Eldar Quliyev bəzi rayon və şəhər ağsaqqallar şuralarının yerlə təminatı, o cümlədən maliyyələşmə məsələləri istiqamətində işlərin aparıldığını və bütün bunların ən qısa zamanda yoluna qoyulacağını bildirib.

Yekunda Azərbaycan Respublikasının rayon və şəhərlərində ağsaqqallar şuralarının konfranslarının keçirilməsinə dair bölgələr üzrə təhkim olunmuş sədr müavinlərinin məlumatları nəzərə alınıb. İclasın qərarına əsasən konfranslarda seçilmiş ağsaqqallar şuralarının sədrləri iyul-avqust aylarında İdarə Heyətinə dəvət olunacaq və onlara müvafiq vəsiqələr veriləcək.

İclasda Azərbaycan Ağsaqqallar Şurası tərəfindən Prezident İlham Əliyevə müraciət qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri arasında əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib

İyulun 6-da Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Hasan Küçükakyüzün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Türkiyə nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək üzərinə gül dəstələri düzüb. Qonaqlar həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını və "Türk Şəhidliyi" abidəsini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

General-leytenant R.Tahirov ölkələrimizin hərbi aviasiya sahəsində əməkdaşlığının və Hərbi Hava Qüvvələri arasında əlaqələrin inkişaf etməsinin ordularımızın döyüş qabiliyyətinin daha da güclənməsinə töhfə verdiyini bildirib.

Ordu generalı H.Küçükakyüz Vətən müharibəsində qazanılan Qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Tərəflər son aylar ərzində Türkiyənin Konya şəhərində keçirilmiş "Anatolian Phoenix-2021" beynəlxalq axtarış-xilasetmə və "Anadolu Qartalı-2021" beynəlxalq taktiki-uçuş təlimlərində əldə edilmiş nəticələri yüksək qiymətləndirərək bu cür təlimlərin hər iki ölkənin Hərbi Hava Qüvvələri arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinə xidmət etdiyini vurğulayıblar.

Görüşdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri arasında əlaqələrin hazırkı vəziyyəti və genişləndirilməsi məsələləri müzakirə olunub, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Ermənistan ekoloji terroru Almaniya şirkəti ilə birlikdə törədir

*Əvvəli 1-ci səh.*

Çayın Araza tökülməsini nəzərə alsaq deyə bilərik ki, bu vəziyyət təkcə Azərbaycan üçün deyil, eyni zamanda İran üçün də böyük problemə çevrilib. Bu sudan məişət və kənd təsərrüfatı ehtiyacları üçün istifadə edilməsi son dərəcə mənfi nəticələrə gətirib çıxara bilər.

Oxçuçayın suyunun rəngi vaxtaşırı dəyişərək gah ağ rəngdə, gah da sarı turşu rəngində olur. 2021-ci ilin mart ayında Oxçuçayın suyunda dəmir, mis, nikel, molibden və digər ağır metalların çox olması nəticəsində balıq növlərinin kütləvi şəkildə qırılması qeydə alınıb. Çaydan götürülmüş su nümunələrinin analizinin nəticələri onun tərkibində mis, molibden, manqan, dəmir, sink və xrom kimi ağır metalların hədsiz çox olduğunu göstərib. Ağır metalların səviyyəsinin yüksək olması insan sağlamlığı üçün də təhlükəlidir. Monitorinq və analizlərin nəticələri, eyni zamanda çayda balıqların kütləvi məhv olması faktları çayın Ermənistan ərazisindəki Qacaran mis-molibden zavodunun və Qafan mis filiz saflaşdırma kombinatının toksiki tullantıları ilə çirkləndirilməsini təsdiq edir.



Bir sözlə, Ermənistan Oxçuçayda fəlakətli vəziyyət yaradıb. Amma Ermənistan bu terroru tək həyata keçirmir. Almaniyanın "CRONIMET Holding GmbH" şirkəti də bu prosesdə yaxından iştirak edir. Bu şirkət Ermənistanın ən böyük vergi ödəyicisi olan Zəngəzur mis-molibden kombinatının 60 faizlə əsas payçısıdır. Bunu xarici KİV-in araşdırmaları da təsdiqləyir. Göründüyü kimi, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ekoloji terrorda xarici şirkətlərin iştirakına dair çoxsaylı faktlar mövcuddur.

Ancaq Azərbaycan mediasının Almaniya səfirliyinə müraciətinə verilən cavab yalnız bir məqsəd güdür - məsələni ört-basdır etmək və diqqəti şirkətin üzərindən yayındırmaq. Bu ölkənin Yaşıllar partiyası isə ümumiyyətlə müraciətə saymazyana cavab verərək Azərbaycana ayırmaq üçün vaxtlarının olmadığını bildirib. Bu partiya bizlərə çox yaxşı tanışdır. Azərbaycana qarşı aparılan çirkin kampaniyaların, qərəzli oyunların başında hər zaman bu partiya dayanıb.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ekoloji terrorda Almaniya şirkətinin iştirakının təsdiqini tapmasından və bu məsələnin beynəlxalq səviyyədə gündəmə gətirilməsindən sonra Almaniya hökuməti problemdən diqqəti yayındırmaq üçün mediada ölkəmizə qarşı kampaniya təşkil etməyə başlayıb. Bu həm də seçkilər ərəfəsində Almaniya hökumətinin ciddi ittihamlardan yaxa qurtarmaq cəhdidir. Əlbəttə ki, bu ölkədə təşkil olunan kampaniyaların davamlı xarakter daşıması həmin prosesdə Almaniya hökumətinin bilavasitə iştirak etdiyini göstərir.

Ermənistan Azərbaycan torpaqlarında həyata keçirdiyi bütün vandallıqlara görə cavab verməli olacaq. O cümlədən təbiətimizə qarşı edilən ekoloji terrorun hesabı sorulacaq

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Foreign MBA Club"un üzvləri Qarabağda aparılacaq bərpa-quruculuq işləri barədə məlumatlandırılıb

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev dünyanın aparıcı universitetlərində MBA (Master of Business Administration) dərəcəsi üzrə təhsil almış "Foreign MBA Club"un üzvləri ilə görüşüb.

Fondun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə İdarə Heyətinin sədri Rəhman Hacıyev Qarabağın işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində maliyyə dəstəyinin göstərilməsi və sərmayələrin cəlb olunması haqqında geniş təqdimat edib.

O, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsinin, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərinin aparılmasının vacibliyini vurğulayıb. Tədbir iştirakçılarına Ermənistanın təcavüzü nəticəsində Qarabağa dəyən zərərin görüntülərini əks etdirən fotoşəkillər və video nümayiş etdirərək dağıntıların miqyası haqqında ətraflı məlumat verən Rəhman Hacıyev qarşıda duran bərpa-quruculuq işləri barədə danışıb. R.Hacıyev postmüharibə dövrünün böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən mürəkkəb bir proses olduğunu diqqətə çatdırıb.

Rəhman Hacıyev qeyd edib ki, dövlət başçısı tərəfindən təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Qarabağa "Böyük Qayıdış" konkret hədəflərin müəyyənləşdirilməsi və reallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

"Bu mərhələdə cəmiyyətimizin müxtəlif qruplarının birləşdirilməsi sözügedən prosesin sürətli, şəffaf və səmərəli formada həyata keçirilməsinə şərait yaradacaq. Bu baxımdan yüksək kompetensiyalı peşəkarların üzərinə mühüm öhdəliklər düşür.

Dövlətin resursları ilə bərabər, müxtəlif layihələrdə özəl təsisatların bu prosesə cəlb olunması həmin bölgənin bərpa prosesini tezləşdirə və eyni zamanda, qurulan infrastruktur layihələrinin müasirliyini, rəqabət qabiliyyətliliyini artıra bilər", - deyə o qeyd edib.

Görüşdə "Foreign MBA Club"un üzvlərinin sualları cavablandırılıb, onların rəy və təklifləri dinlənilib.

Sonda İdarə Heyətinin sədri "Foreign MBA Club"un çərçivəsində dünyanın aparıcı universitetlərində təhsil almış azərbaycanlı mütəxəssislərin Qarabağın gələcək inkişaf prosesində fəal iştirak edəcəyinə və mühüm töhfələr verəcəyinə əminliyini bildirib.

# İLHAM ƏLİYEV Kəlbəcəri dünyanın möcüzəsinə çevirəcək

◆ Qarabağ söhbətləri

*Əvvəli 1-ci səh.*

Əzəmətli dağların ətəyində, Tərtər çayının kənarındakı yamyaşıl geniş həyətdə qonaqların ağ çadırları durna qatarı kimi sıralanardı. Ətirli yumşaq otların üzərinə xalılar, xalçalar döşənərdi... Samovarlara od salınar və birazdan kəklikotulu çayın ətri bürüyərdi aləmi... Sacda yuxa salınar, nehrə



çalxalanar, əmlik quzular kəsilər, saz-söz məclisi düzənlənərdi. Qüdrətdən var olan Kəlbəcərin möcüzəli təbiətindən ilham alan el aşıqları telli sazı sinələrinə basıb elə bir "Kərəm gözəlləməsi", "Baş sarıtel", "Ruhani" çalardılar ki, az qalardı dağ-daş dilə gəlsin. Bu dağlarda şairlərin qəlbinin söz çeşməsi də Kəlbəcərin durna gözlü bulaqları kimi dayanmadan eşqlə coşar, çağlayardı...

*...Bütün bu xoşbəxt anlar 2 aprel 1993-cü ilə qədər ürəklərdə ələm taxtı quran bir qərinəlik zaman ayrılığının o üzündə qalmışdı...*

## Kəlbəcərli bəxtəvərlərin Prezidentə əbədi borcu

Qəhrəmanımız 27 ildən çox idi ki, düşüncələrində daim dağı arana, aranı dağa aparır, o xoşbəxt, məşum günləri kino lenti kimi xəyalında canlandırır, gah gülümsəyər, gah da qəm dəryasına qərq olardı...Ta ki 2020-ci ilin payızına qədər! Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın, əzəli dədə-baba yurdlarımızın azadlığını bütün dünyaya bəyan etdiyi o müqəddəs və xoşbəxt Zəfər gününə qədər...

*"25 noyabrda Ali Baş Komandan "Kəlbəcər bizimdir, Qarabağ Azərbaycandır!" söyləyəndə hamı kimi mən də sevinc göz yaşlarını saxlaya bilmədim. İllər idi bu xəbərin həsrətini çəkirdik, amma qəlbimizdə bir gün ana yurda dönəcəyimizə əminlik vardı. O böyük inamı bizə Ulu Öndər Heydər Əliyev, Prezident İlham Əliyev vermişdi. Hər iki müdrik lider bütün çıxışlarında qətiyyətlə bildirirdi ki, qaçqın və məcburi köçkünlər mütləq öz dədə-baba yurdlarına qayıdacaqlar..."* - deyir həmsöhbətimiz...

Hazırda Nazirlər Kabineti Aparatının əməkdaşı, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 3-cü və 2-ci dərəcə dövlət müşaviri ixtisas dərəcəsi ilə, dövlət qulluğunda səmərəli fəaliyyətinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmiş Qurban Rza oğlu Sadıqovdur "Qarabağ söhbətləri"ndə...

Qurban müəllimlə Kəlbəcərə, Nadirxanlı kəndinə uşaqlıq, gənclik illərinə qayıdırıq... Kəlbəcərin ağır, məşəqqətli günlərindən ürək ağrısı ilə söhbət açır və nəhayət, doğma yurdu Kəlbəcərin azadlığının sevincini, qürurunu, fəxarətini yaşayırıq...

Qurban müəllim deyir ki, 1988-ci ildən etibarən ermənilərin Ermənistanda apardığı etnik təmizləmə siyasəti, Qarabağda xalqımıza qarşı törətdikləri vandalizmin, faşizm əməllərinin canlı şahidi olub: "Dövlət qulluqçusu kimi söyləmirəm, bir vətəndaş, hər şeydən də öncə elindən didərgin düşən kəlbəcərli məcburi köçkün kimi deyirəm: bizim qəlbimizdə bu keşməkeşlərdən qurtaracağımıza inam yaratdığına görə həyatım boyu Ulu Öndər Heydər Əliyevə minnətdar olacağam. Yurd həsrətimizə birdəfəlik son qoyduğuna, bizə Kəlbəcər bəxtəvərliyi bəxş etdiyinə görə cənab Prezident İlham Əliyevə necə təşəkkür, minnətdarlıq edəcəyimi isə sözün düzü, ifadə edə bilmirəm... Çünki bütün hisslər də, sözlər də dövlət başçımızın bizim üçün etdiklərinin yanında çox sönük qalır!.. Qarabağı azadlığına qovuşdurduğuna, Kəlbəcəri, Laçını, Ağdamı bir güllə belə atmadan,




bir itki belə vermədən xilas etdiyinə, bütün qarabağlılara, o cümlədən biz kəlbəcərlilərə etdiyi misilsiz yaxşılıqlara görə hesab edirəm ki, bizdən sonra gələn bütün nəsillər də Ulu Öndər Heydər Əliyevə və Ali Baş Komandan, cənab Prezident İlham Əliyevə minnətdar olacaqlar..."

## Möcüzələr diyarı

Bulaq sularından yaranan dumduru Tərtər çayının ortadan kəsib keçdiyi, uca dağ zirvələri buludlara dirənən, dumandan hörülmüş ağ örpəyi günəşin üzünə rübənd salan qədim bir kənd vardı Kəlbəcərdə Nadirxanlı kəndi...

Qurban müəllim bu kənddə doğulmuş, dünyaya göz açdığı ecazkar təbiətin vurğunu olmuş, onunla həmahəng böyümüşdü. Ta uşaqlığından sübhün alaqaranlığında dağlardan axıb gələn çoban tütəyinin səsinə oyanar, təbiətin ahənginə qoşulub xoşbəxt anlara, aylara, illərə qanad açardı...

Kəlbəcərin bütün obalarında olduğu kimi, Nadirxanlıda da hər fəslin öz gözəlliyi, öz sehri, sevimli məşğuliyyəti olardı...

O da sərin xəzan fəslində sübh tezdən uşaqlarla qoz meşəsinə yollanar, gecədən yağış və küləyin "cıvırıqdan" (yaşıl qabıq) çıxardıb yerə tökdüyü yetişmiş qozu yığmağı xoşlayardı. Kəndin ətrafındakı zoğallığa gedib xeyli zoğal yığardı və anası Nabat xala oğlunun yığıb gətirdiyi o meyvələrdən elə dadlı mürəbbələr bişirərdi ki...

Soyuq qış günlərində çırthaçırtla yanan odun sobasının qırağında oturub pəncərədən çölə, nəhəng dağlara, qarlı meşələrə, göz işlədikcə uzanan dərələrə, dağ yamaclarına baxar, təbiətin bu bəmbəyaz möcüzəsini heyranlıqla seyr edərdi...

Budur, artıq havada yaz ətri duyulur, küləyin ılıq mehi talalardan boy göstərən yaşıl otlara sığal çəkir, qaranquşlar, boynubükük bənövşələr baharın gəldiyini müjdələyir. Deməli, sevimli Novruz bayramı da yaxınlaşır... Axır çərşənbəni həvəslə gözləyir... Həmin gün tonqallar qalanacaq, uşaqlarla birgə evləri bir-bir gəzəcəklər, yığılan bayram sovqatlarını, şirniyyatı, un, süd, yağ, qoz-fındıq, meyvə paylarını yığaraq bir evə toplaşacaqlar... Nənələr o bayram payından uşaqlara ləzzətli kömbə kökələr hazırlayacaq... Nə gözəl günlər idi!..

Yay fəslində isə Nadirxanlı camaatı əsasən Söyüdlü, Kazımkənd və Bəzirxana yaylağına köçərdi. Orda həm dincələr, həm də qış ehtiyatı tutardılar. O da atası Rza kişi ilə tez-tez Hava xalasıgilin yaşadığı Kazımkənd yaylağına gedərdi. Heç yadından çıxmaz, onlar gələn kimi xalası adamboyu qalxmış otun içində qaçmağa çətinlik çəkən çolpalardan tutub kəsdirər, nehrə yağı ilə bişirərdi. Hələ də o dad damağından getməyib...

Babası və atası kərənti ilə ot biçər, o isə biçilib qurumuş otları kiçik topalar şəklində yığardı və xotmalayardı... Bəzən yaba ilə otu qaldıranda altında ətirli çiyələklər görər və sevincək onları ovcuna yığıb babasının ya atasının yanına qaçardı... Biçinin sonunda isə baldırğan gövdəsindən süzülən dadlı şirədən və bumbuz bulaq suyundan içən kimi bütün yorğunluğu çıxardı...

Qurban müəllimin uşaqlığı bax beləcə şən, qayğısız, xoşbəxt keçmişdi...

*Bundan sonra söz Qurban Sadıqovundur...*

## Bərəkətli ev

- Zəhmətkeş ailəmiz vardı, atam fəhlə idi, anam xəstəxanada tibb bacısı işləyirdi. Evdə yeddi uşaq idik, iki qardaş, beş bacı. Valideynlərimiz gecələrini gündüzlərinə qatıb bizi əllərinin qabarı ilə böyüdüb, təhsil veriblər.

Ata babam və nənəm erkən dünyalarını dəyişdikləri üçün çox təəssüf ki, onları görə bilməmişəm...



Kənddə böyük məhləmiz varıydı, babamgil bir başında, biz isə o biri başında yaşayırdıq. Babam Həbib Kəlbəcərin Nadirxanlı kəndini salan, əhalini orada məskunlaşdıran Məşədi Bəxtiyarın oğlu idi. Çox nurani, müdrik, olduqca vətənsevər, işgüzar, zəhmətkeş, qonaqpərvər insan idi. Deyərdim ki, uşaqlıq dövrüm ən çox elə babamla keçib. Yer əkməyə, tərəvəz becərməyə, ağacları sulamağa həmişə bərabər gedərdik. Evin hər işində ata-anama, babanənəmə kömək etmişəm. Səhər tezdən durub bostan sulayırdım, qardaşımla yay uzunu ot biçininə gedirdim, ev və təsərrüfat işlərində kömək edirdim... Kəlbəcərli günlərimlə bağlı ən çox yaddaqalan xatirələr isə qonaq qarşılamağımızla bağlıdır...

Yay olanda o zaman Bakı Şəhər Dövlət Yol Polisində işləyən əmim Mirzə Sadıqovun və xalamgilin ailəsi, eləcə də onların şəhərdən olan qonaqları, dostları, Bərdədən atamın çox yaxın dostu Şura dayı bütün qohumlarının ailələri ilə yığışıb bizə gələrdilər. İki otaqlı, kiçik mətbəxli evimiz var idi deyə ora sığışmazdılar və həyətimiz ağ çadırlarla dolardı. Bir qismi də qohumların evində qalardı. Bütün yayı bir ailə kimi, deyə-gülə, şən əhvali-ruhiyyə ilə keçirərdik...

İlin 9 ayını hazırlaşardıq ki, yayda gilasın, tutun yetişən vaxtı bizə qonaqlar gələcək. Mütləq çolpanın, hinduşkanın, quzunun, çəpişin sayını artırmaq lazım idi... Babamın və atamın rayon ərazisindən də olan qohumlarının, dostlarının bizdə müntəzəm yığışmaları ailəmizə daha çox sevinc gətirərdi. İlboyu ailəlikcə tədarük gördüyümüz azuqəni, balı, qaymağı, yağı, yumurtanı sevinə-sevinə qonaqlarımızla paylaşardıq. Əlbəttə, çaşır və baldırğan süfrənin bəzəyi idi... İnanın ki, evimizdə qonaq olmayanda çox darıxırdıq, az qala özümüzü narahat hiss edirdik... Ümumiyyətlə, bu cür qonaqpərvərlik təkcə bizim ailə üçün deyil, bütün kəlbəcərlilər üçün xarakterikdir...

## Kəlbəcər cah-cəlallı, insanları dağlar kimi vüqarlıdır...

- 1969-cu ildə birinci sinfə getdim. Amma kəndimizdəki məktəb 8 illik olduğu üçün 9-10-cu sinfi yaxınlıqdakı Qılınclı kənd tam orta məktəbində oxudum. Hər iki məktəbdə təhsil səviyyəsi yüksək idi. Yax-



şı müəllimlərimiz vardı. Elə buna görədir ki, Kəlbəcərdən hər biri öz sahəsinin peşəkarı olan xeyli sayda alim, pedaqoq, mühəndis, folklorşünas, qələm sahibi, dövlət xadimi və digər peşə adamları çıxıb... Kəlbəcərin sənət adamlarının, xüsusən məşhur aşıqların, şairlərin səs-sorağı isə bütün Azərbaycana və onun hüdudlarından kənara yayılıb...

Orta məktəbi əla qiymətlərlə bitirdim. Qohumlarımızın içində ovaxtkı Dövlət Təhlükəsizlik Komitəsində çalışanlar olduğu üçün mən də uşaqlıqdan bu sahəni istəyirdim. Həmin qurumda çalışmaq üçün rus dilini bilən mütəxəssislərə üstünlük verildiyindən düşündüm ki, M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutuna daxil olum, sonra istədiyim sahəyə keçərəm. 1979-cu ildə sənədlərimi həmin İnstituta verdim və qəbul olundum.

Sonuncu kursda oxuyanda bir gün Nəsimi Rayon Partiya Komitəsinin vəzifəli şəxsləri, SSRİ Təhlükəsizlik Komitəsinin nümayəndələri və bizim institutun partiya komitəsinin sədri auditoriyaya gəldilər. Təhlükəsizlik Komitəsi üçün kadr seçirdilər. Məni də bu sahəyə uyğun bildilər və sevindim ki, uşaqlıq arzum yerinə yetir.



Fərdi söhbət zamanı dedilər ki, komitənin Minskdə olan ikiillik ali kursuna oxumağa getməliyəm. Amma kursu bitirdikdən sonra ola bilsin ki, təyinatla 25 il müddətinə Azərbaycana yox, SSRİ-nin başqa bir nöqtəsinə göndərildim. Ailəmin vəziyyətini götür-qoy edəndən sonra bu təklifdən imtina etdim. Çünki qardaşım da həmin vaxt Neft Akademiyasında təhsil alırdı. Düşündüm ki, ixtisası ilə əlaqədar o, Bakıda qalıb işləməli olacaq, Kəlbəcərə qayıtmayacaq. Mən də çıxıb getsəm, ailəmizin, atamın, anamın, qoca nənəmin, bacılarımın vəziyyəti necə olacaq, onlara kim arxa-dayaq duracaq?! Beləcə uşaqlıq arzumdan əl çəkdim...

1984-cü ildə Şuşa şəhərindən olan xanımımla ailə həyatı qurduq. Tez-tez Şuşaya getməli olurdum. Ermənistanın hərbi təcavüzündən sonra Şuşa və işğal olunmuş digər rayonlarda soydaşlarımızın hansı dözülməz şəraitdə yaşamalarının, erməni işğalçılarına qarşı necə qəhrəmanlıqla mübarizə apardıqlarının şahidi olmuşam. Qayınatam, Böyük Vətən müharibəsinin iştirakçısı Məmməd Məmmədov 2 aprel 1989-cu ildə bu hadisələrin ucbatından vaxtsız dünyasını dəyişdi. Qayınanam Firəngiz xanım Kəlbəcərin işğalından sonrakı 28 ili bizimlə bir yerdə yaşadı. Şuşanın azad olunması xəbərini eşitsə də, oranı yenidən görmək ona qismət olmadı...

Mən ali məktəbi bitirib Kəlbəcərin Sarıdaş kənd orta məktəbinə pedaqoq kimi təyinat aldım. Bizim kəndlə Sarıdaş arasında 4 kilometr məsafə var idi. Hər gün bu yolu piyada gedib-gəlirdim, hətta qışda 40 sm qar yağanda da o yolu gedib gəlirdim, heç vaxt dərsdən qalmırdım.

Az sonra mən Kəlbəcər Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri Sahib Əkbərov tərəfindən həmin qurumda təlimatçı vəzifəsinə, daha sonra isə işgüzar fəaliyyətim nəzərə alınaraq, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı olduğu müddətdə isə humanitar məsələlər şöbəsində məsul vəzifəyə təyin olundum.

Həmin dövrdə vəzifəmlə əlaqədar Kəlbəcərin bütün ərazisini, yaşayış qəsəbələrini, yaylaqları, dağları qarış-qarış gəzmişəm, hər kənddə olmuşam, insanları yaxından tanımışam. Kəlbəcərin əsrarəngiz təbiəti, hündür dağları, çayları, dünyanın nadir ağacları bitən sıx meşələri, bənzərsiz flora və faunası, yeraltı, yerüstü sərvətlərinin zənginliyi, iqliminin gözəlliyi, eyni zamanda insanlarının istiqanlılığı, dürüstlüyü, əqidəliliyi, fədakarlığı, vətənpərvərliyi, qonaqpərvərliyi, səmimiliyi, saflığı, mətinliyi və təmənnasızlığı sanki bir harmoniya, tamlıq təşkil edirdi. Hər zaman Kəlbəcər cah-cəlallı, insanları dağlar qədər vüqarlı olub...

## Kəlbəcər mühasirədə döyüşürdü

- 1988-ci ildən etibarən Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə və işğal siyasəti baş qaldırandan bütün Qarabağda olduğu kimi, Kəlbəcərdə də vəziyyət gərginləşdi... Qədim yurd yerimiz Göyçədən olan soydaşlarımızın bir hissəsi qarlı-çovğunlu qış günlərində piyada uca dağları aşaraq Kəlbəcərə pənah gətirmişdilər. Rayonun bütün aidiyyəti qurumları onların qarşılanmasını və yerləşdirilməsini təmin etdi. Bir çox ailəni də biz öz kəndimizdə yerləşdirdik.

Ağdərə yolu bağlanmışdı. Buna görə də o zaman rayon rəhbərliyinin uzaqgörənliyi nəticəsində Murovdan çətinliklə keçilən bir yol açılmışdı. Həmçinin Kəlbəcərlə Laçın rayonunu birləşdirən yol da çəkilmişdi. 1992-ci il mayın 18-də Laçın işğal olunanda oranın Kəlbəcərə yaxın kəndlərinin əhalisi də həmin Murov yolu ilə çıxıb canlarını qurtarmışdılar.

Müharibə şəraitinə uyğun olaraq rayon rəhbərliyi qarşımızda müvafiq vəzifələr qoymuşdu və biz Ermənistanla, yuxarı Qarabağla həmsərhəd yaşayış məntəqələrinə və zastavalara təhkim olunmuşduq. Daim o ərazilərdə olur, əsgərlərin gündəlik təminatını, problemlərini öyrənir, əhali ilə izahat işləri aparır, vəziyyəti rəhbərliyə məruzə edirdik.

1992-ci il aprelin 7-dən 8-nə keçən gecə ermənilər Ağdərə rayonunun Çapar deyilən kəndinin ərazisindən Ağdaban və Çayqovuşan kəndlərinə hücum edərək kəndlərin keşiyini çəkən mülki şəxsləri güllələmiş, kənddə böyük qırğınlar, talanlar törətmişdilər.

O zaman Kəlbəcərə ezam olunmuş Azərbaycan Televiziyasının müxbiri Nadir Abdullayevi müşayiət etmək mənə tapşırıldı və çəkiliş aparmaq üçün biz böyük çətinliklə Ağdabana getdik. Hərbçilərimiz erməniləri kənddən qovub çıxartsa da, ərazidə təhlükə hələ qalırdı... Vəhşi ermənilər bir gün içərisində Ağdabana girmiş, insanları qətlə yetirmiş, girov aparmış, evləri dağıtmış, hər tərəfi yandırmışdılar. Bəzi evlərin həyətlərindəki təndirlərə kisələrdə soyutma ət, içki, çörək gətirib yığmışdılar. Onlar mövqelərini həmin yerlərdə bərkidəcəklərini düşünmüşdülər... Ağdabana çatanda ömür boyu gözlərim önündən getməyəcək və məni iliklərimə qədər sarsıdıb dəhşətə gətirən ürək parçalayıcı bir mənzərənin şahidi oldum. Həyətlərin birində bir qadın üzgözünü cıraraq, saçlarını yola-yola yanmış ot tayasının başına fırlanırdı. Onun qışqırtısı, ah-naləsi bütün kəndi bürümüşdü. Vəhşi ermənilər qadının yeganə oğlunu gecə bu ot tayasında yandırmışdılar...

Böyük sənətkar, Kəlbəcər elinin dədəsi Aşıq Şəmşirin evinə daxil olduq. Vandallar Aşığın bütün külliyatını yandırmış, evi tarmar etmişdilər. O zaman ermənilərin Ağdabanda törətdikləri bütün bu vəhşiliklər lentə köçürüldü.

Ağdaban və Çərəkdar kəndləri yandırılandan sonra həmin kəndlərdən olan üç ailə gəlib bizim evdə qalırdı.

Sovet qoşunlarının, erməni və kürd terrorçu silahlı birləşmələrinin iştirakı ilə Kəlbəcəri işğal edən Ermənistan 1993-cü ilin aprel ayında ikinci bir "Xocalı faciəsini" rayonun Başlıbel kəndində törətdi.

Onu da deyim ki, mən Bakıdan Kəlbəcərə qayıdandan sonra anamın arzusu ilə böyük bir ev tikdirmiş, rahat şərait qurmuş, 5 kilometr məsafədən bulaq suyu çəkdirmişdim. Təzəcə sevinmişdik ki, hər bir şəraitimiz var, artıq toy-büsatımızı keçirəcək, hörmətli qonaqlarımızı rahat qəbul edəcək, firavan yaşaya biləcəyik...

Amma təəssüf ki, biz o evdə sadəcə Çərəkdarda döyüşdə şəhid olan yaxın qohumumuz 70 yaşlı Yunis Məmmədovun və Əziz nənəmin 40 gün yasını verə bildik. O evdə xoşbəxt yaşamaq bizə nəsib olmadı...

1993-cü il aprelin 1-də tapşırıq aldım ki, təcili tunel ərazisindəki hərbçilərimizə yanacaq aparılmalıdır. Artıq ermənilər ora yaxınlaşırdılar. Yük maşını təşkil etdik və yanacaq götürüb ora yollandıq. Martın ortalarından aprelin 2-si də daxil olmaqla Kəlbəcərin Ermənistanla və yuxarı Qarabağla həmsərhəd bütün yaşayış məntəqələrinə toplardan və minamyotlardan atəş açılıb yandırılırdı. Vəziyyət çox gərgin idi, telefat olmasın deyə mart ayının son günləri artıq əhalini rayon ərazisindən çıxardırdılar. Mən aprelin 2-də Nadirxanlıya qayıtdım, gördüm bizim də ailəmizi aparıblar, kənddə heç kim qalmayıb, sadəcə bir neçə yaşlı və xəstələr var idi. Təcili onları da Əyyub kişinin traktorunun qoşqusuna ("lafetə") yerləşdirdik ki, dağ yolu ilə çıxa bilsinlər. Həmin gün Qamışlı çayından keçən axırıncı maşınlardan birində mən də çıxdım. Bizdən təxminən 10-15 dəqiqə sonra artıq o yol da bağlandı...

Dəniz səviyyəsindən 3724 metr hündürlükdə yerləşən Murovda elə bir qar-boran var idi ki, sanki dünyanın sonu gəlmişdi. Yaşlı insanlar, qadınlar, uşaqlar dağlara, meşələrə səpələnmişdi... Kimisi piyada gedir, kimisi yük maşınlarının üstündə şaxtadan donurdu. Çox böyük müsibətlər yaşadıq... Yolboyu ailəmizi axtarsam da, tapa bilmədim, ağlıma min cür fikir gəlirdi... Nəhayət, bir gün sonra Gəncədə bir kəndçimizlə rastlaşdım, dedi sizinkilər yük maşınının üstündə Goranboy istiqamətində getdilər. Düşündüm, yəqin ailəmiz Bərdəyə, atamın dostu Şura dayıgilə getmiş olar. Ailəmiz də mənim öldü-qaldımı bilmirdilər. Soraqlaşa-soraqlaşa bir müddət sonra Xəsilli kəndinə, onların yanına gedəndə anamla atamın necə körpə uşaq kimi boynumu qucaqlayıb ağlamaları hələ də bağrı-



mın başını köz kimi yandırır... Valideynlərimlə görüşəndə bildim ki, onlar da çıxanda mənim kimi kənddən bircə əyinlərindəki paltarla çıxmışdılar. Dişimizlə-dırnağımızla illər uzunu qurduğumuz ev-eşik tamamilə mənfur düşmənə qalmışdı...

Onu da deyim ki, işğala qədər Kəlbəcər düz 5 il mühasirə şəraitində yaşadı. Ancaq çox təəssüf ki, bu 5 il ərzində ovaxtkı iqtidarların heç biri Xocalı, Şuşa, Laçın kimi, Kəlbəcərin də xilası üçün heç nə etmədi... Təsəvvür edin, yollar bağlı, elektrik enerjisi yox. Kəlbəcərin bütün təminatı yalnız Murov yolu ilə həyata keçirilirdi. Sakinlər isə respublikanın digər bölgələrinə Murov yolu ilə və ya helikopterlərlə gedib gəlirdilər. Hərbçilər və yerli könüllülər öz qanları bahasına Kəlbəcəri müdafiə edirdilər. Şəhidlərimiz çox olurdu... Hər gün döyüş bölgələrindən nə qədər yaralılar gətirilirdi. Kəlbəcərin qəhrəman həkimləri xəstəxanalarda çox çətin şəraitdə o igidlərin həyatını xilas etmək üçün gecə-gündüz çalışırdılar.



Kəlbəcər çox ağır günlər keçirsə də, amma heç zaman düşmənə təslim olmur, cəsurluqla mübarizə aparır, döyüşürdü. Mülki əhali də hərbçilərimizə əlindən gələn köməyi əsirgəmirdi, kimisi onlara qoşulub döyüşə girir, kimisi zastavalara heyvan kəsib aparır, kimisi çörək, meyvə-tərəvəz daşıyırdı... Hamı çalışırdı ki, Vətənin müdafiəsinə imkanı daxilində dəstək olsun...



Ancaq ovaxtkı siyasi hakimiyyətdə olan naşı, bacarıqsız, səriştəsiz, tamahkar, yarıtmaz adamlar Azərbaycanın qala qapısı Kəlbəcəri də düşmənə təhvil verib, bu məğrur dağlar diyarını viranə qoydular...

## Ulu Öndər bizə Vətənə qayıdış inamını bəxş etdi

- Kəlbəcər işğal olunandan sonra rayon icra hakimiyyətinin nümayəndəsi kimi Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda səlahiyyətli nümayəndə təyin olundum. Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı, dəyərli ziyalımız, Kəlbəcər Rayon Ağsaqqallar Şurasının sədri Qəmbər Qurbanovun müvafiq tapşırığına əsasən kəlbəcərlilərin dislokasiya yerini müəyyən edir, hansı ünvanlarda müvəqqəti məskunlaşdıqları barədə adlı siyahılar, ünvanlar tərtib edir, bunları rayon icra hakimiyyətinə göndərirdik ki, o adamlar dövlət qayğısından kənarda qalmasınlar, sosial müavinətlərdən və dövlət tərəfindən olunan digər imtiyazlardan istifadə edə bilsinlər.

Təhsilimi davam etdirmək həvəsim isə sönməmişdi. 1997-2001-ci illərdə Bakı Dövlət Universitetində qiyabi olaraq ikinci ali təhsil alıb, hüquqşünas ixtisasına yiyələndim.

Tale elə gətirdi ki, 17 iyun 1993-cü il tarixdən etibarən 1993-2018-ci illər ərzində Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının qaçqınların,məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq təşkilatlarla iş üzrə şöbədə müxtəlif vəzifələrdə, o cümlədən şöbə müdiri vəzifəsində çalışdım. Bu illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində öz doğma yurdundan didərgin düşmüş insanların taleyi mənə çox yaxın və doğma olub. Məhz bu sahədə Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin, həmçinin Nazirlər Kabineti rəhbərliyinin bütün göstəriş və tapşırıqları əsasında üzərimə düşən vəzifəni var qüvvəmlə layiqincə və vicdanla yerinə yetirməyə çalışmışam.

İqtidar monolit bir komanda olaraq hər zaman yurd-yuvasından didərgin salınmış soydaşlarımızın mənzil-məişət, sosial problemlərinin yüksək səviyyədə həll edilməsini təmin edib. Eyni zamanda Ulu Öndərin bir nömrəli problem hesab etdiyi qaçqın və məcburi köçkün problemi barədə həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində də çox mühüm işlər görülüb. Dünyanın heç bir ölkəsində belə bir qayğı nümunəsi yoxdur.

## Qətiyyətli liderin Zəfər təntənəsi

- Heydər Əliyevin müstəqil Azərbaycanın inkişafı yolunda nail olduğu böyük uğurları Prezident İlham Əliyev son 18 ildə öz müdrik daxili və xarici siyasəti ilə daha da möhkəmləndirdi. O, dünyaya Azərbaycanın inkişaf modelini təqdim etdi, məcburi köçkünlərimizin doğma torpaqlarına qayıdacaqlarına olan inamını daha da artırdı. Ulu Öndərin bünövrəsini qoyduğu Qarabağa qayıdış siyasətini onun layiqli davamçısı cənab İlham Əliyev qətiyyət və müvəffəqiyyətlə reallığa çevirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 30 ildir dədə-baba yurdumuzu talayaraq, daşı daş üstdə qoymayan, maddi-mədəni abidələrimizi məhv edən, orada Azərbaycan xalqına məxsus bütün izləri silməyə çalışaraq zorla doğma Qarabağımıza yiyələnmək istəyən faşist xislətli erməniləri "Dəmir yumruq"un əzmi ilə cəmi 44 gün ərzində diz çökdürdü. Elə-obaya Qələbə sevinci ərmağan etdi, yurdundan didərgin düşən yüz minlərlə vətəndaşımızın Vətən həsrətinə son qoydu. 44 günlük müharibə Prezident İlham Əliyevin qətiyyətinin, ordumuzun qüdrətinin və xalqımızın həmrəyliyinin təntənəsi oldu. Eyni zamanda bütün dünyaya nümayiş etdirildi ki, heç bir təzyiq və ya təhdid Azərbaycanı özünün milli maraqlarını təmin etməkdən, haqq yolundan çəkindirə bilməz.

İndi səbirsizliklə doğma yurdlarımıza Böyük Qayıdış mərhələsini gözləyirik. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, işğaldan azad edilmiş bütün torpaqlarımızda həyat yenidən öz axarına düşəcək və mənfur düşmən tərəfindən tamamilə viran qoyulan ərazilərimizdə bütün yaşayış məntəqələri və infrastruktur yenidən qurulacaq, inkişaf edəcək. Artıq Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən bütün Qarabağda, həmçinin Kəlbəcərdə də erməni vandalizminə məruz qalan maddi-mədəni irsimizə məxsus nadir incilərin, tarixi-dini abidələrimizin bərpası prosesi başlanmışdır.

Hər bir kəlbəcərli inanır ki, İlham Əliyev bütün Qarabağı olduğu kimi, torpağının altı da, üstü də zəngin xəzinə, təbiət incisi və möcüzəsi olan Kəlbəcəri də dünyanın möcüzəli məkanına, turizm cənnətinə çevirəcəkdir...

## Kəlbəcərin və kəlbəcərlilərin ən əziz qonağı

- Ən böyük arzum Qarabağın bütün yaşayış məntəqələrinin işğaldan azad olunmasını və onun müasir bərpasını görmək, doğulduğum Nadirxanlıda ata-baba yurdumu bərpa etmək, doğma ocağımızın işığını yandırmaq idi. Çox təəssüf ki, 2005-ci ildə dünyasını dəyişən atama Kəlbəcərin azadlığı xəbərini eşitmək, Nadirxanlıdakı doğma evinə qayıtmaq qismət olmadı. Amma əminəm ki, Vətənimizin azadlığı uğrunda canından, qanından keçərək şəhid olan bütün övladlarımız kimi, qəribçilikdə vəfat edən bütün məcburi köçkünlərin, o cümlədən atamın da ruhu bu xəbəri duydu və indi şaddır...

Mən əminəm ki, dövlətimizin dəstəyi və kəlbəcərlilərin fədakarlığı ilə biz doğma torpaqlarımızda əvvəlkindən də gözəl həyat quracaq, evlər, əzəmətli binalar tikəcəyik, ölkəmizin qala qapılarından biri olan Kəlbəcəri daha möhtəşəm, daha qüdrətli edəcəyik... Ölkə Prezidentinin bu günlərdə imzaladığı "Kəlbəcər rayonu ərazisində dövlət sərhədinin mühafizəsi və müdafiəsinin təşkilinin elektrik enerjisi ilə təchizatı haqqında" 22 iyun 2021-ci il tarixli sərəncamı da cənab İlham Əliyevin strateji bölgə kimi Kəlbəcərə necə böyük önəm verdiyinin əyani təzahürüdür.

Artıq Kəlbəcər dirçəliş yolundadır. O diyarda həyat qaynayır, təsərrüfatlar qayıdır. İndi Kəlbəcərin gül-çiçəkli çəmənliklərində arı pətəkləri qurulub. Daxili İşlər və Kənd Təsərrüfatı nazirliklərinin köməyi ilə bəzi fermer təsərrüfatları öz qoyun sürülərini və arı təsərrüfatlarını Kəlbəcərin geniş yaylaqlarına qaldırıblar... İşgüzar Kəlbəcər camaatı tezliklə öz yurd-yuvasında ev-eşik quracaq, abadlıq işləri aparacaq, oralarda nə düşmənin, nə də acı həsrətin izi-tozu





da qalmayacaq... Yenə aşıq havası səslənəcək, müğənnilər oxuyacaq, yenə şairlər şeir deyəcək, yenə toy-büsat olacaq...

Yenə qonaqpərvər kəlbəcərlilərin hər birinin evində, süfrəsinin ən yuxarı başında daim bir mötəbər qonaq yeri saxlanacaq; ən əziz adamlar - Xilaskar Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyev və onunla çiyin-çiyinə Azərbaycan xalqına xidmət edən, işğaldan azad olunmuş əraziləri onunla birlikdə qarış-qarış gəzən, bərpa edən, məcburi köçkünlərə daim qayğı göstərən Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva üçün...

Şübhəsiz ki, bu gün cənab Prezident İlham Əliyev də, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da hər bir qarabağlının, hər bir kəlbəcərlinin ən müqəddəs ünvanıdır, məğrur dayağı, etibarlı güvəncidir...

Qətiyyətli "Dəmir yumruq"u sayəsində Böyük Zəfərə imza atan Ali Baş Komandan sübut etdi ki, o, ən böyük Kəlbəcərlidir, ən böyük Qarabağlıdır, ən böyük Azərbaycanlıdır!

*Budur, yenə yay fəslidir...*

*Kəlbəcər də, bütün kəlbəcərlilər də ayaqüstədir, şad-xürrəmdir..*

*Kəlbəcərin möcüzəli təbiəti əziz qonaqlarını qarşılamaq üçün bütün cah-cəlalı, naz-neməti ilə pişvaza hazırlaşır...*

*Sıldırım qayaların zirvəsində məskən tutan məğrur qartallar göy üzündə qələbə qıyı çəkir, sıx meşələrdən axan zümrüd bulaqlar sevinclə pıçıldaşır, min bir ətirli güllər-çiçəklər azad Kəlbəcər yaylaqlarına rayihəsini saçır...*

*Başdan-başa bayram əhvali-ruhiyyəsi ilə yaşayan Kəlbəcər eli sazı ilə, sözü ilə, sovqatları ilə tarixindəki ən əziz qonağını qarşılamağa çıxıb...*

*Gələn qonaq onlara Vətən xoşbəxtliyini yaşadan yenilməz sərkərdə, şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevidir...*

*Hamı bir ağızdan deyir: Xoş gəlmisən Yeni Kəlbəcərə, əzizimiz, doğmamız, qiymətlimiz, şanlı rəhbərimiz...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## “Məşğulluq marafonu”na son bir həftədə daha 30 işəgötürən qoşularaq 300-ə yaxın vakansiya təqdim edib




Şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğunun təminatı məqsədilə başladılan “Məşğulluq marafonu”na son bir həftədə daha 30 işəgötürən qoşularaq 300-ə yaxın vakansiya təqdim edib.

Beləliklə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başladılan marafona qoşulan işəgötürənlərin sayı 200-ə, onlar tərəfindən e-sistemə daxil edilən vakansiyaların sayı 900-ə yaxındır.

Bakı və ölkəmizin bölgələri üzrə fəaliyyət göstərən həmin işəgötürənlərin 110-u xidmət, 60-ı emal, 17-si kənd təsərrüfatı, qalanları tikinti sahələri üzrədir. Təqdim edilən vakansiyalar üzrə şəhid ailələrinin üzvlərinə, müharibədə yaralanmış qazilərimizə iş yerləri ilə təmin olunmaları üçün göndəriş verilir.

Qeyd edək ki, indiyədək marafona qoşulan işəgötürənlərin sayı 200-ə, onlar tərəfindən e-sistemə daxil edilən vakansiyaların sayı 900-ə yaxındır.

## Bakıda 25-ci Beynəlxalq Biznes Forumu keçiriləcək

İyulun 6-da iş adamlarının, biznes assosiasiyaları və Beynəlxalq Biznes Forumun (IBF) nümayəndələrinin iştirakı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və IBF arasında 25-ci IBF Forumunun Bakıda keçirilməsinə dair anlaşma memorandumu imzalanıb.

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, sənədi agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov və IBF-in sədri Erol Yarar imzalayıblar.

O.Məmmədov IBF-nin ölkəmizdə keçirilməsinin iştirakçı ölkələr, xüsusilə də Azərbaycan və Türkiyə arasında biznes sahəsində əməkdaşlığın genişləndirilməsi və iş adamlarının iştirakı ilə çoxtərəfli biznes platformanın formalaşdırılmasında əhəmiyyətli olacağını bildirib. Qeyd olunub ki, forum çərçivəsində Azərbaycanın əlverişli biznes və investisiya mühitinin xarici investorlara tanıdılması, iş adamları arasında birbaşa biznes əlaqələrin qurulması, Qarabağın investisiya imkanları barədə təqdimatın keçirilməsi nəzərdə tutulur. Forum post-COVID dövründə ticarət və iqtisadi tərəfdaşlığın canlandırılması, yeni təşəbbüslərin reallaşdırılması baxımından da əhəmiyyətli olacaq.

Beynəlxalq Biznes Forumun rəhbəri E.Yarar və Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) sədri Abdurrahman Uzun 25 ildir keçirilən IBF-nin əhəmiyyətinə dair fikirlərini bölüşüb, növbəti tədbirin Bakıda keçirilməsindən məmnunluqlarını bildiriblər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov forumun iş adamları arasında yeni əlaqələrin qurulması və əməkdaşlığın inkişafı, eləcə də ölkəmizin biznes mühitinin təqdim olunması baxımından əhəmiyyətli olacağını vurğulayıb.

Tədbir çərçivəsində IBF-nin fəaliyyətinə dair film nümayiş olunub.

Qeyd edək ki, forum dünyanın bir sıra ölkələrinin iş adamlarını və dövlət rəsmilərini bir araya gətirməklə, ölkələr arasında ikitərəfli iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi, davamlı əməkdaşlıq modellərinin yaradılması, investisiya sahəsində əməkdaşlıq və biznes əlaqələrinin möhkəmləndirilməsi məqsədilə təşkil olunur. Forum 1995-ci ildə MÜSİAD tərəfindən təsis edilib və ildə bir dəfə keçirilən IBF çərçivəsində bir sıra panel iclaslar, ölkə təqdimatları, ikitərəfli görüşlər və sair tədbirlər təşkil olunur.

## Aqrar islahatlar ərzaq idxalından asılılığımızı azaldır



### Bu il taxılımız da boldur

*Əvvəli 1-ci səh.*

Bunun sayəsində işğaldan azad edilən torpaqlarla yanaşı, əlavə min hektarlarla sahənin su problemi həll olunub.

Məlumdur ki, bu gün dünyada ərzaq təhlükəsizliyinin təminatı strateji məsələ hesab edilir. Bütün dövlətlər çalışır ki, ərzaq məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilsin. Ərzaq təhlükəsizliyinin təminatında isə buğda istehsalı mühüm rol oynayır. O üzdən hazırda dünyada qiyməti sürətlə artan kənd təsərrüfatı məhsullarından birinin taxıl olmasını başa düşmək çətin deyil.

Bu səbəbdən ölkəmizdə də taxılçılığın inkişafı ilə bağlı bir çox mühüm qərarlar qəbul edilib. Həmin qərarlar hesabına fermerlərə maliyyə dəstəyi verilir ki, ölkənin çörəyə olan tələbatı maksimum daxili istehsal hesabına ödənilsin. Son illər taxılçılıqda məhsul istehsalının artması da bunun nəticəsidir. Yeri gəlmişkən qeyd edək ki, cari ildə də fermerlər taxılçılıqda yüksək məhsuldarlığa nail olurlar. Məsələn, Tovuz rayonunda cari ildə taxıl sahələrinin hər hektarından 38 sentner məhsul götürülüb. Lakin rayonun bir çox təsərrüfatlarında aparılan düzgün becərmə sayəsində məhsuldarlıq 50-60 sentnerə çatıb ki, bu da ötənilki səviyyədən yüksəkdir.

Ağcabədi rayonunda isə taxıl biçini davam edir. Artıq 24 min 912,6 hektarda biçin aparılıb, 101 min 701 ton məhsul əldə olunub. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, torpaq mülkiyyətçiləri bu il 26 min 879,6 hektar sahədə taxıl becəriblər. Onun 22 min 224,1 hektarı buğda, 4655,5 hektarı arpadır. Düzgün aqrotexniki qulluq sayəsində zəmilərdə bol məhsul yetişib. Taxıl biçininə ümumilikdə rayon üzrə 51 taxılbiçən kombayn cəlb edilib. Bunun 38-i “Aqrolizinq” ASC-yə məxsus, 13-ü isə fiziki şəxslərin və iri təsərrüfat sahiblərinin istifadəsində olan texnikalardır.

Qeyd edək ki, Ağcabədi rayonu respublikanın 100 min tondan çox taxıl istehsal edən rayonları sırasındadır. Ötən il rayon taxılçıları 28 min 324 hektardan 105 min 494,2 ton məhsul əldə ediblər. Hər hektarın məhsuldarlığı orta hesabla 37,2 sentner olub.

Söz düşmüşkən onu da bildirək ki, Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən Xaçmaz rayonunun Hacılar kəndində taxılın 14 yeni növünün sınaq əkini həyata keçirilib. İnstitutun direktoru Faiq Xudayev fermerlərə innovativ becərmə texnologiyaları və institutda yaradılan yeni taxıl sortları barədə ətraflı məlumat verib. Bildirilib ki, müasir dövrdə taxılçılığın inkişafı əkin sahələrinin artırılması hesabına deyil, məhsuldar, keyfiyyətli yeni sortların yaradılması, onların istehsalata tətbiq olunması hesabına əldə edilir: “Biz Xaçmaz rayonunun Hacılar kəndində yerli fermerin təsərrüfatında yeni yaradılan taxıl sortlarının nümayiş əkinini həyata keçirmişik. Əsas məqsədimiz yeni sortları fermerlərə tanıtmaq və onların birbaşa iştirakı ilə qiymətləndirməsini aparmaqdır. Sağlam məhsul əldə etmək üçün keyfiyyətli toxumdan istifadə etmək lazımdır. Yeni yaradılan sortlar uzun illər adaptasiya xüsusiyyətinə malik olan sortların hibridləşməsi nəticəsində əldə olunub. Yeni sortları buradakı nümayiş sahələrində əkməklə bölgə üçün daha xarakterik olan, xəstəliyə davamlı, məhsuldar taxıl sortlarını müəyyənləşdirmək və əkinə tətbiq etmək istəyirik”.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Vüqar Hüseynovun sözlərinə görə, artıq ölkədə taxıl sahələrinin 81,3 faizində biçin yekunlaşıb, 805 min 189 hektarda 2 milyon 597 min 468 ton məhsul yığılıb. Ölkə üzrə orta məhsuldarlıq 32,3 sentnerdir. Hazırda biçin əsasən dağətəyi və dağlıq ərazilərdə aparılır. Məhsul yığımına 1499 kombayn cəlb olunub.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Tütün yığımına start verilib

Builki mövsümdə “Azərtütün ASK” MMC tərəfindən respublikamızın şimal-qərb bölgəsinə daxil olan Zaqatala, Balakən, Qax və Şəki rayonlarında 875,2 hektar sahədə “Virciniya botaniki” növlü tütün əkilib.

Bir neçə gündür cəmiyyətə məxsus sahələrdə yaşıl tütün yarpağının dəriminə start verilib. İlk günlər Balakən, Zaqatala və Şəki rayonlarının tütün istehsalçıları tərəfindən cəmiyyətin Zaqatala rayonunda fəaliyyət göstərən tütün istehsalı və emalı məntəqəsinə qurudulmaq üçün 44 ton 495 kiloqram yaşıl tütün kütləsi təhvil verilib.

Bu barədə AZƏRTAC-a “Azərtütün ASK” MMC-nin şöbə müdiri Mütəllib Mustafayev məlumat verib. Qurum rəsmisi bildirib ki, hazırda cəmiyyətin Zaqatala, Balakən, Qax və Şəki rayonlarında 4 tütün istehsalı və emalı məntəqəsi fəaliyyət göstərir. Tütün qəbulu məntəqələrində ümumilikdə 262 tütünqurutma kamerası quraşdırılıb. Bu kameraların üstün cəhəti odur ki, yaşıl tütün kütləsi sahələrdən birbaşa məntəqəyə gətirilir və qurudulmaq üçün kameralara qoyulur. Tütün istehsalçıları artıq yaşıl tütünün ipə düzülməsi kimi çətin, əziyyətli və vaxtaparan işdən azad olublar. Hər kameraya bir dəfəyə 8 ton yaşıl tütün kütləsi yerləşdirmək mümkündür. Tütünün qurudulması prosesi 7-8 gün çəkir. Bu proses başa çatdıqdan sonra quru tütün anbarlara yığılır və daha sonra emal olunmaq üçün zavoda göndərilir.

Şöbə müdirinin sözlərinə görə, tütün istehsalı ilə əlaqədar bu il həmin rayonlarda 130 fermerlə müqavilə bağlanılıb. Mövsümün ilk günlərində emal məntəqəsinə Balakən rayonu üzrə istehsalçılardan 30 ton 865 kiloqram, Şəki rayonu üzrə 7 ton, Zaqatala rayonu üzrə isə 6 ton 630 kiloqram yaşıl tütün kütləsi daxil olub.

## “Sətti” neft-qaz sahəsində əməkdaşlığın daha bir səhifəsini açır



**Qazaxıstanın Azərbaycanda təkmilləşdirilən bu qazma qurğusu Xəzərdə fəaliyyət göstərəcək**

*Əvvəli 1-ci səh.*

Qazma qurğularının tikintisi və təkmilləşdirilməsi üzrə böyük təcrübəyə malik KDK “Sətti”nin modernləşdirilməsini də uğurla həyata keçirib. Təkmilləşdirilmə qurğunun texniki və istehsalat qabiliyyətini artırmış, onun 6 min metrdən çox dərinliyi olan kəşfiyyat quyularını təhlükəsiz və səmərəli qazmasına imkan yaratmışdır.

Qazaxıstanlı qonaqlar KDK-nin müasir dəniz təchizat və logistika bazasını ziyarət edib. SOCAR və BP şirkətlərinin rəhbər heyətlərinin də iştirak etdiyi tədbirdə “Sətti”nin modifikasiyası və hazırda cəlb olunduğu layihə üzrə istismarı barədə iştirakçılara geniş təqdimat keçirilib. Beləliklə, nümayəndə heyəti qurğuda görülmüş təkmilləşdirmə işləri ilə yerində tanış olub. Qeyd edək ki, əməliyyat dövründə qurğu üzərində menecmenti KDK şirkəti həyata keçirəcək.

Hazırda “Sətti” Abşeron yarımadasının SOCAR və BP tərəfindən birgə istismar olunan dayazsulu hissəsində əməliyyatlara cəlb olunub. Gələcəkdə bu qurğunun Xəzər dənizi akvatoriyasında digər əməliyyatlarda da iştirak edəcəyi nəzərdə tutulub.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev “KazMunayGaz” Milli Şirkətinin səhmdarı “Samruk-Kazına” Milli Rifah Fondu Səhmdar Cəmiyyətinin icraçı direktoru Almasadam Satkalıyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə “KazMunayGaz”la həyata keçirilən birgə layihələrə aid məlumat verilib. Eləcə də geniş əməkdaşlıq perspektivlərindən, o cümlədən Xəzər dənizində geoloji kəşfiyyat işlərindən, karbohidrogen xammalının kəşfiyyatı üzrə geoloji-geofiziki materialların birgə öyrənilməsi ilə bağlı imkanlardan və Xəzər Regionunun Ətraf Mühitinin Mühafizəsi Təşəbbüsündə (CEPI) birgə fəaliyyətdən bəhs edilib. Qeyd edilib ki, neft-qaz layihələrində birgə işləmək, əməkdaşlığı daha da möhkəmləndirmək üçün böyük perspektivlər var. Azərbaycanın boru kəmərlərindən və digər infrastrukturlarından istifadə etməklə Qazaxıstan neftinin dünya bazarlarına çıxarılması mövcud imkanlardan biri kimi göstərilib.

“Samruk-Kazına” Milli Rifah Fondu (90 faiz) və Qazaxıstan Respublikasının Milli Bankı (10 faiz) Qazaxıstan dövlətinin neft və qaz sənayesində maraqlarını təmsil edən, karbohidrogenlərin kəşfiyyatı, istehsalı, emalı və nəqlini həyata keçirən “KazMunayGaz” Milli Şirkətinin səhmdarlarıdır. “KazMunayGaz” Milli Şirkəti 2002-ci ildə yaradılıb. Şirkətin tərkibində 190-dan çox təşkilat birləşib.

“Samruk-Kazına” Milli Rifah Fondu Səhmdar Cəmiyyətinin icraçı direktoru Qazaxıstanın birgə biznes layihələrinin potensialından bəhs edib. Son vaxtlar əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyi, Qazaxıstanın gələcəkdə də Xəzər dənizindəki layihələrdə əməkdaşlığa maraqlı olduğu vurğulanıb.

Qonaqlar “SOCAR Tower” ilə də tanış olublar, Neft muzeyini ziyarət edib, Vizualizasiya Mərkəzinə baş çəkiblər. Xatırladaq ki, Vizualizasiya Mərkəzi istehsalat əməliyyatlarının vahid rəqəmsal mərkəzdən idarə olunması, ixtisaslaşmış sahələr üzrə xüsusi toplantıların keçirilməsi, irihəcmli və kritik layihələr üzrə müzakirələrin aparılması, operativ qərarların qəbul edilməsi, eləcə də böhran vəziyyətləri və fövqəladə halların idarə olunması funksiyalarının yerinə yetirilməsi üçün nəzərdə tutulub.

Azərbaycanın və Qazaxıstanın neft-qaz sənayesini təmsil edən səlahiyyətli nümayəndələrin görüşləri daha böyük əməkdaşlıq perspektivlərindən xəbər verir. “Sətti”nin ölkəmizdəki fəaliyyəti də əməkdaşlıq və tərəfdaşlığa yeni təkan verir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## “Şahdəniz-2”nin şərq-cənub cinahından hasilat başlanıb

### Bu, “Şahdəniz” yatağından gündəlik ümumi hasilatı 2,4 milyard standart kubfutdan yuxarı qaldırmağa imkan verəcək

“Şahdəniz” konsorsiumu bu gün 540 metr dərinlikdə yerləşən şərq-cənub cinahından hasilatın başlandığını elan edib. Bu, 2021-ci il üçün planlaşdırılmış, təhlükəsiz və qrafikə uyğun yerinə yetirilmiş mühüm bir layihədir. Dərinsulu cinahdan hasilat dənizdə bütün əlaqədar quraşdırma və istismar sınaqları uğurla başa çatdıqdan sonra iyunun 30-da başlayıb.

“BP Azerbaijan” şirkətindən bildirilib ki, yeni şərq-cənub hasilat cinahı 4 quyudan, 2 yeni axın xəttindən və dünya səviyyəli “Şahdəniz” lay-kollektoruna birləşdirilmiş çoxsaylı sualtı konstruksiyadan ibarətdir. Cinahın 2021-ci ilin üçüncü rübündə tam hasilat səviyyəsinə çatacağı gözlənilir.

“Şahdəniz” layihəsinin operatoru olan BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: “Bu, “Şahdəniz” çərçivəsində cari il üçün planlaşdırdığımız ən mühüm layihədir və biz buna COVID-19 pandemiyasının yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq təhlükəsiz, qrafikə və büdcəyə uyğun şəkildə nail olduğumuzdan çox məmnunuq.

“Şahdəniz-2” çərçivəsində əsas infrastruktur layihələri başa çatandan və 2018-ci ildə ilk qaz əldə olunandan bəri bütün “Şahdəniz” komandası bu nəhəng yataqdan hasilat səviyyəsini artırmaq üçün tam gücü ilə işləyir. Bunun üçün qalan cinahlarda yeni quyular istismara verilir və sualtı hasilat sistemində yeni infrastruktur işə salınır.

Məmnuniyyətlə bildirirəm ki, yeni işə salınmış şərq-cənub cinahı oradakı 2 manifolddan və “Şahdəniz-2” qurğularına çəkilmiş 40 kilometrdən çox uzunluğu olan axın xətlərindən istifadə etməklə “Şahdəniz” yatağından ümumi hasilat həcminə gündə təxminən 90 min barel neft ekvivalenti əlavə edəcək. Mən həm layihədə, həm də əməliyyatlarda çalışan bütün işçilərimizə təşəkkür edirəm. Məhz onların zəhməti nəticəsində belə çətin bir zamanda və son dərəcə ağır pandemiya şəraitində bu mühüm layihənin uğurla həyata keçməsinə nail olmuşuq”.

## Oğuz-Şəki yoluna yeni asfalt döşənir

Oğuz-Şəki avtomobil yolunun 31.5 km-lik əsas hissəsinin 2-ci texniki dərəcəyə uyğun yenidən qurulması davam etdirilir. Bunun üçün yolboyu genişləndirmə işləri aparılaraq yolun hərəkət hissəsinin eni 9 metrə çatdırılır.



Yenidənqurma işləri zamanı yolun köhnə örtüyü sökülüb, zəruri yerlərdə yararsız qrunt qazılaraq çıxarılıb, əksdolğu işləri görülüb. Lazımi tikinti materialından istifadə olunmaqla yol yatağı və yol əsasının inşası işləri həyata keçirilir. Yol əsası hazır olan hissələrə artıq yeni asfalt-beton örtüyünün döşənməsi işlərinə başlanılıb.

Bundan başqa zəruri olan yerlərdə müxtəlif diametrlərə malik yeni suötürücü borular quraşdırılıb, su keçidləri inşa edilib. Həmçinin Zəyzidçay üzərində yerləşən körpü istismar müddətini başa vurduğu üçün sökülərək yerində yeni ötürücünün inşası həyata keçirilib. Yeni avtomobil körpüsü 1 aşırımlı olmaqla uzunluğu 15 metr, eni isə 13 metr təşkil edir.

Yuxarıda sadalanan təmir-tikinti işləri ilə yanaşı, yolboyu zəruri olan yerlərdə dəmir-beton istinad divarlarının və beton küvetlərin tikintisi, həmçinin mövcud körpülərin əsaslı şəkildə təmiri də layihə üzrə görülən işlərdəndir. Oğuz-Şəki avtomobil yolunun yenidən qurulması çərçivəsində 9.1 km uzunluğa malik Şəki dairəvi yolunun da ( Zərifə Əliyeva və Salman Mümtaz küçələri) əsaslı şəkildə təmiri işləri aparılıb. Şəki dairəvi yolunun 6 km-lik hissəsi (Salman Mümtaz küçəsi) 4 hərəkət zolaqlı olmaqla 1-ci texniki dərəcəlidir, 3.1 km-lik hissəsi (Zərifə Əliyeva küçəsi) isə 2 hərəkət zolaqlıdır.

3.4 km-lik Oğuz və 3.2 km-lik Şəki şəhərlərinə giriş yollarının isə 3-cü texniki dərəcəyə uyğun yenidən qurulması nəzərdə tutulub.

Təbii ki, yenidənqurma işlərinin sonunda yolboyu zəruri olan yerlərdə yol nişanları və məlumatverici lövhələr quraşdırılacaq, yolcizgi və yolgöstərici xətlər, həmçinin piyada zolaqları çəkiləcək.

Tikinti işləri “İnşaat Norma və Qaydaları”nın tələblərinə əsasən, tərtib olunmuş qrafiklə və yüksək keyfiyyətlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında aparılır. Bunun üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

# Azərbaycan və Slovakiya arasında əqli mülkiyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Ölkəmizə səfərə gəlmiş Slovakiyanın Sənaye Mülkiyyəti İdarəsinin prezidenti Matuş Medves Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində olub.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, İdarə Heyətinin sədri Kamran İmanovla keçirilən görüşdə qonağa Azərbaycanda əqli mülkiyyət sisteminin qurulması tarixi haqqında qısa məlumat verilib və ölkəmizdə 2018-ci ildə müəlliflik hüququ və sənaye mülkiyyəti sahələri üzrə səlahiyyətləri özündə birləşdirən vahid dövlət qurumu olan Əqli Mülkiyyət Agentliyinin yaradıldığı bildirilib. O, hazırda tabeliyində Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və Respublika Elmi-Texniki Kitabxanası olan Agentliyin fəaliyyəti və funksiyaları barədə qonağa məlumat verib və yaxınlarda Prezident İlham Əliyevin Fərmanı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə Əqli Mülkiyyət Agentliyinin tabeliyində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradıldığını qeyd edib.

Agentliyin rəhbəri Azərbaycan Prezidentinin 2021-ci il 6 yanvar tarixli fərmanı əsasında "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi"nin yaradıldığını xüsusi vurğulayaraq müasir texnologiyaların əqli mülkiyyət landşaftına təsirini qeyd edib və Əqli Mülkiyyət Agentliyinin də həmin Mərkəzin fəaliyyətində yaxından iştirak etdiyini, Agentliyin İdarə Heyətinin sədr müavininin Mərkəzin Müşahidə Şurasının üzvü olduğunu diqqətə çatdırıb.

K.İmanov Agentlik tərəfindən kreativ sənayenin iqtisadiyyatdakı rolu sahəsində aparılan tədqiqatlar haqqında məlumat verərək son illər kreativ sektorun verdiyi töhfənin ölkə iqtisadiyyatında və ümumi daxili məhsulda getdikcə artdığını bildirib. K.İmanov Duqlas Nortun neoinstitusionalizm nəzəriyyəsinə əsaslanaraq, vahid qurumun iqtisadiyyatın əməliyyat xərclərinin minimuma endirilməsinə də müsbət təsirini vurğulayıb, həmçinin Agentliyin əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və transferi sahəsində rolunu qeyd edib.

Əqli mülkiyyət hüquqlarının qorunması səviyyəsi ilə iqtisadi inkişaf səviyyəsinin qarşılıqlı təsiri haqqında qonaqla fikir mübadiləsi aparan K.İmanov onlar arasında olan korrelyasiya sahəsində Agentlik tərəfindən aparılmış araşdırma barədə danışıb, eyni zamanda, müəlliflik hüququ ilə sənaye mülkiyyəti arasında kəsişən məqamları diqqətə çatdırıb. O bu məsələlərin cari ilin iyunun 22-də Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktoru Daren Tanq ilə keçirilmiş videogörüşdə qaldırdığını və ÜƏMT çərçivəsində müzakirə olunmasını təklif etdiyini bildirib.

K.İmanov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə olunmuş Zəfər nəticəsində torpaqlarımızın Ermənistanın işğalından azad edildiyinə toxunaraq hazırda həmin ərazilərdə innovasiya və əqli fəaliyyət nəticələrini özündə ehtiva edən "ağıllı şəhər" (smart-city) və "ağıllı kənd" (smart-village) layihələrinin həyata keçirilməsinə başlanıldığını vurğulayıb.

Slovakiyanın Sənaye Mülkiyyəti İdarəsinin prezidenti Matuş Medves regiona ilk dəfə səfər etdiyini qeyd edib, Azərbaycanın əqli mülkiyyət sahəsindəki uğurları, beynəlxalq reytinq göstəricilərində ölkəmizin nəzərəçarpacaq irəliləyişləri haqqında məlumatı olduğunu bildirib. O, hazırda Slovakiyada universitet və elmi-tədqiqat institutlarında texnologiyaların transferi və kommersiyalaşdırılması sahəsində görülən işlərdən danışıb və bu istiqamətdə ölkəmizin təcrübəsindən yararlanmaqda maraqlı olduqlarını nəzərə çatdırıb. M.Medves həmkarı K.İmanovu Slovakiyaya səfərə dəvət edib.

K.İmanov ÜƏMT ilə birgə həyata keçirilən "Universitet və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün Milli Layihə"yə toxunub, ölkəmizin ali təhsil müəssisələrində Agentliyin dəstəyi ilə texnologiyaların transferi mərkəzlərinin, o cümlədən Bakı Dövlət Universitetində əqli mülkiyyət kafedrasının yaradıldığını bildirib.

Görüşdə qarşılıqlı əməkdaşlıq məsələləri, birgə tədbirlərin təşkil olunması, təlim səfərlərinin həyata keçirilməsi məsələləri də müzakirə olunub.

# Vaksinasiya yalnız qorunmaq üçün deyil

*Əvvəli 1-ci səh.*

Dünən vaksinasiya haqqında daha çox dezinformasiyaya inananlar bu gün inamlı şəkildə peyvəndləmə kampaniyasına qoşulmaqdadırlar. Bütün bunlar ilk növbədə hər bir yeniliyin müəyyən çətinliklərlə qəbul olmasından irəli gəlsə də, əsas məsələ inamın formalaşmasında, təbliğatın formasındakı dəyişiklikdədir, hər halda mütəxəssislər və sosioloqlar belə düşünürlər. Onlar bildirirlər ki, vaksinlər bir ölkədə təqdim olunmazdan öncə geniş sınaqlardan keçirilir.

Həkimlər və alimlər bir vaksini ictimaiyyətə təqdim etməyə qərar verərkən ciddi beynəlxalq standartlara əsaslanırlar. Lakin ixtisas həkimləri onu da söyləməyi vacib hesab edirlər ki, bütün digər preparatlar kimi, vaksinlər də qeyri-ciddi və müvəqqəti olan yan təsirlərə səbəb ola bilir. Daha ciddi yan təsirlərə isə çox nadir hallarda rast gəlinir. Çox güman ki, bir insana vurulan peyvənddən daha çox həmin xəstəliyin ciddi ziyanı ola bilər.

Bu gün xüsusi qeyd edilməlidir ki, COVID-19 peyvəndinə ehtiyac təcili idi, o səbəbdən dövlətlər və şirkətlər onu hazırlamaq üçün daha çox vəsait ayırdılar. Hətta iqtisadi cəhətdən güclü dövlətlər vaksinlərin alınmasında daha çox fəallıq göstərdilər. Demək, vaksinasiyanın ciddi proses olması bu faktda da özünü göstərir. Ciddi təhlükəsizlik və klinik standartlara riayət etməklə yanaşı, peyvəndin tədqiqi və hazırlanması bütün dünyada eyni zamanda baş verdi. Bu, peyvəndin daha sürətli hazırlanmasına imkan yaratmış oldu. Lakin bu, tədqiqatların dərinliyini və ya peyvəndlərin təhlükəsizliyini heç də azaltmadı.

Artıq ictimaiyyət üçün əlçatan olan peyvəndlərin heç birinin tərkibində COVID-19-a səbəb olan canlı virus yoxdur. Onlar qol ağrısı və ya mülayim hərarət kimi yan təsirlərə səbəb ola bilər ki, bu da peyvəndin işə yaradığına bir işarədir.

Peyvəndlər bədənin müəyyən xəstəliklərdən qorunmasına kömək edir. Bədən ona uyğunlaşanadək, hər hansı bir dərman kimi, qol ağrısı və ya yüngül temperatur artımına, qısamüddətli yan təsirlərə səbəb ola bilər. Bu, öncədən də gəlinən qənaətlərdəndir. Həkimlərin sözlərinə görə, müəyyən yan təsirlər mümkündür, lakin son dərəcə nadirdir. Bir insanın peyvənddən çox xəstəlikdən ciddi şəkildə zərər görməsi ehtimalı daha yüksəkdir.

Vaksin sınaqlarında müxtəlif könüllülər iştirak ediblər. Klinik sınaqlar zamanı insanlar könüllü olaraq vaksini qəbul edirlər. Bu könüllülər coğrafi ərazi, irqi və etnik mənşə, cins və yaş baxımından müxtəlif olurlar. Onlar həmçinin bu xəstəliyə yoluxmaq riskini daha yüksək edən əlaqəli xəstəlikləri olan insanlardır. Bu isə vaksinin hər kəs üçün təhlükəsiz və effektiv olmasını təmin edən əsas şərtlərdəndir.

Effektivliyini sınaqdan keçirmək və hər hansı ümumi yan təsirləri, təhlükəsizliklə bağlı problemləri müəyyən etmək üçün COVID-19 vaksinlərinin də standart hazırlanma qaydaları var. Bura minlərlə könüllünün iştirakı ilə çoxsaylı sınaq mərhələləri daxildir.

COVID-19-dan qorunmaq və ya onun zərərini azaltmaq üçün həyata keçirilən sosial və tibbi qaydalar öz əhəmiyyətliliyi ilə diqqəti daha çox cəlb etməkdədir. Vaksinasiya da məhz həmin proseslərin, yaxud mərhələnin ən vacib hissəsidir. Doğrudur, bu gün insanlar daha çox peyvəndləmə prosesinə qatılmaqdadır. Bu, qismən də olsa, onlarda bir arxayınlıq yaradır. Unuduruq ki, peyvənd orqanizmin ümumi immunitetinin möhkəmləndirilməsində necə vacib rol oynayırsa, ümumiyyətlə, koronavirus infeksiyasından qorunmaq da o dərəcədə vacibdir.

Son vaxtlar Nazirlər Kabineti yanında Operativ Qərargahın və TƏBİB-in sosial məsafə, tibbi maskalardan istifadə, gigiyenik qaydalara əməletmə kimi tövsiyələrini unudanlara da rast gəlinir. İctimai nəqliyyatda, iri ticarət obyektlərində tələb olunan qaydaların "unudulması" sanki pandemiyanın artıq ömrünü başa vurması anlamına gəlir. Əslində, biz pandemiyanın həyatımızdan birdəfəlik getməsi üçün tövsiyələri qulaqardına vurmamalı, inzibati tənbehdən çəkinərək, cərimələnməkdən qorxaraq hüquq mühafizə orqanlarının əməkdaşlarını gördükdə "maskalanmaq"dansa, qayda-qanunlara məhz xəstəlikdən uzaq olmaq üçün əməl etməliyik. Buna ilin isti fəslini bəhanə gətirmək isə yersizdir. Düzgün geyinildikdə, tibbi maskalar həddən artıq az oksigeni və ya çox karbon qazını nəfəsinizə çəkməyə sizi vadar etməyəcək.

Alkoqol qəbul etmək COVID-19-un qarşısını almır və ya müalicə etmir. Eləcə də alkoqol qəbul etmək sizi COVID-19-dan qorumur. Çox alkoqol qəbul etmək əslində digər sağlamlıq problemləri riskini artıra bilər.

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, COVID-19 virusunu daşıyıb-daşımadığını təsdiqləməyin ən yaxşı yolu laboratoriya müayinəsinin aparılmasıdır. İstilik və rütubət COVID-19-un yayılmasının qarşısını almır. Hava nə qədər günəşli və isti olursa-olsun, COVID-19-a yoluxa bilərsiniz. İsti hava şəraiti olan ölkələrdə COVID-19-a yoluxma hadisələri haqqında məlumat verilib. Özünüzü COVID-19-dan qorumağın ən yaxşı yolu başqalarından etibarlı məsafə saxlamaq və əllərinizi tez-tez və hərtərəfli yuyub təmizləməkdir.

Ultrabənövşəyi lampalar COVID-19-un qarşısını almaq və ya müalicə etmək üçün istifadə edilməməlidir. Onlar dərinizi qıcıqlandıra və gözlərinizə zərər verə bilərlər. Əllərinizi alkoqol əsaslı ələvmə və ya sabunlu su ilə təmizləmək COVID-19 virusunu aradan qaldırmağın ən təsirli yollarından biridir. COVID-19-un ağcaqanad sancması ilə yayıldığına dair heç bir dəlil yoxdur. COVID-19 əsasən yoluxmuş bir insanın öskürdüyü, asqırdığı və ya danışdığı zaman yaranan damcılarla yayılır. İnfeksiyalı bir səthə toxunduqdan sonra gözlərinə, burnuna və ya ağzına əlini vuranda da yoluxa bilərsən. Özünüzü qorumaq üçün əllərinizi tez-tez təmizləyin və evdə toxunduğunuz səthləri dezinfeksiya edin.

Viruslar, o cümlədən COVID-19 radio dalğalarında və ya mobil şəbəkələrdə "səyahət" edə bilməz. COVID-19 5G mobil şəbəkəsi olmayan bir çox ölkədə yayılmışdır.

Beləliklə, gəlin razılaşaq ki, sağlamlığımız əsasən öz əlimizdədir. O əllərdə ki, vaxtaşırı gigiyena qaydalarına əsasən təmiz saxlamalıyıq. Vaksinlərin etibarlılığı nə qədər güclü olursa-olsun, ilk növbədə sosial qayda-qanunlara əməl etmək pandemiyanın ömrünün qısalığı, "köhnə həyat"a qayıdışı deməkdir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***







# Xoşbəxt sənətkar



Azərbaycan opera müğənnisi, pedaqoq, Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" və "Şərəf" ordenli Xuraman Qasımovanın ömrünün yetmişinci ilində ən böyük yubiley sevinci Prezident İlham Əliyevin imzaladığı sərəncam oldu. Sərəncamda bildirilirdi: "Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə Xuraman Əkrəm qızı Qasımova "İstiqlal" ordeni ilə təltif edilsin". Yubiley təəssüratının xatirələri ilə həmahəng olduğu bir vaxtda sənətkarla görüşdük. Xuraman Qasımova bu əlamətdar günlərində sevincinə şərik olanların varlığından duyduğu məmnunluqla söhbətə başladı:

## Yaxşı ki, xatirələr var

- Əvvəla onu deyim ki, dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə "İstiqlal" ordeni ilə təltif olunmağım uzun illər səbir və sevgi ilə Azərbaycan mədəniyyətinin, musiqi sənətinin inkişafında xidmətlərimə göstərilən böyük diqqətin təzahürüdür. Çox şadam ki, bizim bacarığımıza və əməyimizə qayğı göstərilir, qiymətləndirilir. Yubileyim ərəfəsində aldığım bu mükafat qəlbimdə xoş hisslər oyatdı. Bir də hər yaş dönəmində, həyatımızda əlamətdar hadisələr baş verəndə sanki xatirələr dilə gəlir. Ömrünün ən xoş günlərində insanın gözləri hər zaman ona yaxın, doğma olan insanları axtarır. Ötən illər, həyatında yeri əvəzedilməz olanlar üçün qəribsəyirsən. Mən də bu dünyadan erkən köçmüş valideynlərimin, qardaşımın sevincimə şərik olmamalarına heyifsilənirəm. Həyatın öz qanunları var. Heç kəs bu dünyada əbədi deyil. Ancaq nə yaxşı ki, illərin uzaqlığında qalsa da, könlümə həmişə yaxın olan xatirələr var. O illəri, doğmalarımı dönə-dönə yada salmaq mənim üçün olduqca fərəhlidir...

Xatirələrin işığında hər zaman aydın gördüyüm, illərin məndən uzaqlaşdıra, unutdura bilmədiyi bir ev var. Bakının bənzərsiz İçərişəhərində yerləşən o ev mənim ata ocağımdır. Biz üç uşaq - böyük qardaşım Əlibəy, bacım Fidan və mən həyatı öyrənməyə ordan başladıq. Valideynlərimizin sevgisini, zəkasını, qayğıkeşliyini, ümidlərini, arzularını qəlbimizə köçürə-köçürə boya-başa çatdıq.

Bakıda ziyalı ailəsində dünyaya gəldik. Babamız Əlibəy Qasımov Qori Müəllimlər Seminariyasının məzunu olub. Seminariyada təhsilini uğurla başa vurduqdan sonra vətənə qayıdıb. Pedaqoji fəaliyyətə başlayıb. Bir neçə dili mükəmməl bilən babam dünyaşöhrətli yazıçıların əsərlərini rus dilindən Azərbaycan dilinə tərcümə edib. 1920-ci ildə Bakı Dövlət Universitetinin açılmasında böyük xidmətlər göstərən ziyalılarımızdan biri də babam olub. Özü də həmin universitetdə çalışıb. Rus dili kafedrasına rəhbərlik edib. Bir müddət prorektor vəzifəsində işləyib. Tanınmış maarifçi olub.

Atam Əkrəm Qasımov Neft-Kimya İnstitutunda (indiki Neft Akademiyası - Z.F.), anam Tükəzban xanım isə Tibb İnstitutunda (hazırda Tibb Unuversiteti - Z.F.) təhsil almışdı. Atam məsul vəzifələrdə çalışırdı. Anam isə işləmirdi. Ailəsinin qayğısına qalırdı. Təhsilimizlə, tərbiyəmizlə də daha çox anam məşğul olurdu.

## Musiqi ilə keçən uşaqlıq illəri

Valideynlərimizin geniş savada malik olmaları, mədəniyyəti, incəsənəti çox sevmələri, bu hissi bizə də aşılamaları həyatımızı başlanğıcından mənalandırdı. Onlar Azərbaycan musiqisini, incəsənətini yalnız sevməklə, pərəstiş etməklə kifayətlənmirdilər. Ata-anamız həm də bu aləmə yaxın idilər. Evimizə tez-tez onların yaxın dostları olan mədəniyyət, incəsənət, elm xadimləri qonaq gəlirdilər. Akademik Zahid Xəlilov, xalçaçı rəssam Lətif Kərimov, bəstəkarlar Fikrət Əmirov, Telman Hacıyev, Cahangir Cahangirov, Tofiq Quliyev, Maestro Niyazi, tarzən Hacı Məmmədov və başqalarını ata-anamızın sayəsində uşaqlıqdan tanıdıq. Kiçik yaşlarımızdan onların maraqlı söhbətlərini dinlədik, yeni əsərlərinin ilk dinləyicilərindən və ifaçılarından belə olduq.

Bizə səs genetik olaraq keçib. Atam da çox gözəl tenor səsə malik idi. O, tarda, pianoda, akkordeonda çalır və oxuyurdu. Azərbaycan xalq mahnılarını, romansları, ariyaları məharətlə ifa edirdi. Bir gün ailəmizin yaxın dostlarından olan Maestro Niyazi onu Üzeyir Hacıbəylinin yanına aparıb. Üzeyir bəy atamın ifasını dinləyib, çox bəyənib və onu birbaşa konservatoriyanın üçüncü kursuna qəbul edib. Ancaq atam bir il oxuyandan sonra konservatoriyanı tərk etmək məcburiyyətində qalıb. Çünki ölkə rəhbərliyi tərəfindən məsuliyyətli vəzifəyə təyin olunub. Çoxları atamın musiqi təhsilini tamamlaya bilməməsinə heyifsilənib, xüsusilə də anam...

Musiqi sənətini seçməyimizə gəlincə, valideynlərimiz bizim hələ körpə ikən musiqiyə böyük həssaslıqla yanaşmağımızdan danışırdılar. Anamızın laylaları altında tez şirin yuxuya gedir, yaxud atam tar çalanda onu diqqətlə dinləyirikmiş. Bəlkə elə bu duyumumuz valideynlərimizi hələ o zamanlar böyüyəndə musiqi ilə ciddi məşğul olacağımıza inandırıb. Belə də oldu. Böyük qardaşımız Əlibəy indiki Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin fortepiano sinfinə daxil oldu. Əlibəydən bir neçə il sonra Fidan xanım da həmin məktəbin skripka sinfinə qəbul edildi. Mən isə 23 saylı orta məktəbə getdim. Onda biz artıq İçərişəhərdən köçmüşdük. Şəhərin mərkəzində yaşayırdıq. Təhsil aldığım orta məktəb evimizin yaxınlığında yerləşirdi. O zamanların şagirdləri musiqi, dram dərnəklərinə böyük həvəslə gedirdilər. Mənim uşaqlığım da belə keçirdi. Dərnəklərə gedir, məktəb xorunda solist kimi çıxış edirdim. Uşaqlıq illərimizdən valideynlərimiz bizi tez-tez konsertlərə, tamaşalara aparırdı. Ona görə evimizə gələn sənət adamlarını həm də səhnədə görüb tanıyırdıq. Bizim ilk konservatoriyamız elə onlarla ünsiyyətdən başlayıb.

## Yüksək dəyərlərə ehtiramla yanaşmaq bacarığı

Ailədə bizə mədəni olması, etik davranışı, insanları sevməyi, böyük-kiçik yeri bilməyi, hörmət etməyi, gözəlliyə biganə qalmamağı öyrədirdilər. Yaşımız az olanda da yüksək dəyərlərə ehtiramla yanaşmağı bacarırdıq. Valideynlərimizin sayəsində tanıdığımız sənətkarlar evimizə gələndə ərköyünlük, şıltaqlıq etmirdik. Onların ifa etdikləri musiqiləri, söhbətlərini, tövsiyələrini diqqətlə dinləyirdik. Bunlar bəlkə də bizim musiqi sənətində aldığımız ilk dərslər idi. Sonralar onları daha yaxından tanıdıq, Azərbaycan mədəniyyətinə, incəsənətinə, elminə verdikləri töhfələrin qiymətini anladıq. Zaman gəldi, həmin məşhur sənətkarların qarşısına dost ailənin övladları olaraq deyil, qabiliyyətli, ümidverici gənclər kimi çıxdıq. Sənətdə tanışlıq yox idi. İstedadımız, musiqi sevgimiz, öyrənmək marağımız olmasaydı, hətta ailə dostlarımız olan sənətkarların, evimizin yaraşığı Maestro Niyazinin sayəsində də biz böyük səhnəyə çıxa bilməzdik. Təqdirlərini qazanmaq böyük qürur idi və biz bu səadəti dönə-dönə yaşadıq. Onlar ifamızı dinlədilər, bəyəndilər, bizə xeyir-dua verdilər. Maestro Niyazi çoxlarına kömək göstərirdi. Ancaq hər ifaçını konsertlərdə müşayiət etməzdi. O, yalnız çox bəyəndiyi ifaçılarla səhnəyə çıxardı. Xoşbəxtik ki, onların sırasında biz də yer aldıq.

Uşaqlıqdan görüb-götürdüklərimiz, öyrəndiklərimz bizə musiqi sənətinin, istedadlı və zəhmətsevər sənətkarların qədrini bilməyi öyrətdi. Valideynlərimiz bizə ilk növbədə savadlı olmağı tövsiyə edirdilər. Əlibəy də, Fidan xanım da, mən də ata-anamızın arzuladığı kimi, dərslərimzi yaxşı oxumaqla kifayətlənmirdik, mütaliə etməyə çox həvəsliydik.

Uşaqlıq illərində gələcək cazibədar xəyallarla, ümidlərlə insanı özünə səsləyir. Mən də ildən-ilə dəyişən, daha cəlbedici olan arzularla, xəyallarla yaşayırdım. Onların hər birinin qarşısında isə mükəmməl təhsil almaq niyyəti dayanırdı. Əminəm ki, o oxuyub öyrənmək əzmi ilə hansı peşəni seçsəydim, mütləq peşəkarı olardım. Amma diqqətli və həssas anamız qabiliyyətimizi hiss etdi, gördü. Fidan xanımın da, mənim də vokal sənətinin ardınca getməyimizi arzuladığını dilə gətirdi. Fidan xanım konservatoriyanın skripka sinfinə daxil oldu. Bir il sonra onu vokal şöbəsinə də qəbul etdilər. Beləliklə, Fidan xanım Üzeyir Hacıbəyli adına Konservatoriyanı (indiki Bakı Musiqi Akademiyasını - Z.F.) iki diplomla - həm skripkaçı, həm də vokalist kimi bitirdi. Moskva Dövlət Konservatoriyasının aspiranturasını da oxuyub diplom aldı.

Mən orta məktəbi bitirəndə jurnalist olmaq istəyirdim. Amma anamın məsləhətinə əməl etdim. Məni dinləyən mütəxəssislər də ifamı bəyəndilər. İmtahanlardan uğurla keçib konservatoriyaya daxil oldum. Onda Fidan xanım üçüncü kursda oxuyurdu, adı əlaçı tələbələr sırasında çəkilirdi. Hər ikimizdən əvvəl isə qardaşımız konservatoriyanın fortepiano şöbəsinə qəbul edilmişdi. Ancaq sonra o, fiziologiya elminə maraq göstərdi. Konservatoriya təhsilini tamamlamadı. Lomonosov adına Moskva Dövlət Universitetinə daxil oldu, Moskva şəhərinə köçdü.

Fidan xanımla məndən fərqli olaraq Əlibəyin səsi yox idi. Amma çox güclü musiqi duyumu, fitri istedadı vardı. Əgər davam etsəydi, böyük musiqiçi olardı. Bizi uşaqlıqdan elə tərbiyə etmişdilər ki, öz seçimimizdə sərbəst idik. Qardaşımın bu qərarına da valideynlərimiz müdaxilə etmədilər, onu fikrindən daşındırmağa çalışmadılar. Lakin musiqi onun qanında, daxilində çağlayırdı. Onun xüsusən bizim üçün bəstələdiyi əsərlər dəfələrlə konsertlərdə səsləndi.

## Sənət imtahanı

Hələ məktəbli ikən filmlərə çəkildim. Təklif rejissordan gəldi. Əsərdən bir parça verdilər. Öyrəndim. Sınaq çəkilişlərində ifamı bəyəndilər. Hər uşaq kimi, yeniyetmə, gənc qız olaraq mən də baxdığım filmlərdəki şahzadə, gözəl qız rollarını canlandırmaq istəyirdim. Mənə verilən ssenarini oxuyanda sözün açığı düşünməli oldum. Çirkin qız... Məni Cüllüt roluna hazırlayan qrim ustalarından inciyirdim. O qədər çirkin deyildim axı. Artıq on dörd yaşındaydım. Utanırdım. Küçə ilə gedəndə birdən eşidirdim. Çağırırdılar: "Cüllüt...", səksənirdim. Sonra alışdım. Bir də qəhrəmanım çox maraqlı bir məqamı tamaşaçıların diqqətinə çatdırır. Sonda çiçək kimi açılması ilə göstərir ki, qəlbin gözəlliyi ən mənalı gözəllikdir.

Deyə bilərəm ki, "Liftçi qız"dakı Lalə, "Mən ki gözəl deyildim"də Səidə, "Həyat bizi sınayır"da Hicran rolları uğurlu oldu və məni tamaşaçılara tanıtdı. Doğrudur, mən kinoaktrisa olmaq niyyətində deyildim... Kinorejissorlar dəvət edirdilər. Ancaq mən qərarımı vermiş, başqa bir sənət yolunda irəliləyirdim. İllər sonra isə düşündüm ki, bizim həyatımızdan bəhs edən ssenarilər yaza, film çəkə bilərdilər. Nə qədər ki, yaşa dolmamışdıq, həmin filmlərdə özümüz çəkilə bilərdik. Bu da olmadı...

Mən gənc yaşlarımdan səhnəyə çıxdım. Müsabiqələrdə iştirak etdim. O vaxtlar bütün bunlar asan deyildi. Böyük səhnədə gənc ifaçı üçün hər çıxışı bir sənət imtahanı sayıla bilərdi. Adlısanlı, istedadlı sənətkarlar, musiqi tənqidçiləri onlardan səviyyəli ifalar gözləyirdilər. Və bu məsələdə güzəştsiz, olduqca tələbkar idilər.

Müsabiqələrə gəlincə, o illərdə tələblər olduqca yüksək idi. On beş respublikanın daxil olduğu çox böyük Sovetlər ölkəsindən iki-üç ifaçı seçilir, beynəlxalq müsabiqələrə göndərilirdi. Münsiflər heyətində tanınmış musiqiçilər qiymət verirdilər. Onların seçimi vacib idi. Biz gənc iştirakçılar da qələbə müqabilində nə əldə edəcəyimizi belə ağlımıza gətirmədən yalnız sənət barədə düşünürdük. Bacım Fidan xanım da, mən də bütün çətinlikləri aşaraq, sınaqlardan keçərək dəfələrlə beynəlxalq müsabiqələrdə uğurla iştirak etdik, Vətənə böyük qələbələrlə döndük.

## Sənət dostları

Həyatda da, sənətdə də belədir. Uğurlarına səndən də çox sevinən, hər zaman düzgün yol göstərən səmimi dost tapmaq asan deyil. Deyə bilmərəm ki, bu məsələdə bəxtim gətirmədi. Amma ən böyük xoşbəxtliyim Fidan xanım kimi bacımın yanımda olmasıdır. Bizi bir-birimizə çox şey bağlayır. Fidan xanım mənim üçün böyük sənətkardır. Eyni zamanda ən yaxın rəfiqəm, bir növ müəlliməmdir. Səhnədə, sənətdə, pedaqoji fəaliyyətdə ilk növbədə onunla məsləhətləşirəm. Fidan xanım mənim üçün örnəkdir. Həyatımda hər zaman onu qorumağa çalışmışam. Mehriban bacıyıq. Bu bizə yaradıcılıq məsələlərində bir-birimizə obyektiv tənqidçi kimi yanaşmağa mane olmayıb. Tamaşalarda, konsertlərdə Fidan xanımla bir-birimizə kənardan baxır, məsləhətlər verir, nə isə qane etməyəndə saatlarla müzakirə edirdik.

Çıxış etdiyimiz tamaşalarda quruluşçu rejissorlar olsa da, iki bacı xirdalıqlara qədər bir-birimizə kömək edə-edə rollar yaradırdıq. Deyə bilərəm ki, bir-birimizin rejissoru olduq. Yalnız bir dəfə, 1988-ci ildə SSRİ xalq artisti, Gürcüstan teatr cəmiyyətinin sədri, tanınmış rejissor Aleksidze Bakıya gəlib Verdinin "Otello" operasını səhnələşdirdi. Həmin tamaşada ikimiz də Dezdemona rolunu ifa etdik. İndi dünyaşöhrətli rejissorla işləmək üçün gözəl imkanlar yaranıb. Bizim gənclər xaricə gedirlər, məşhur sənətkarlarla operada çıxış edirlər. Biz Sovet hökumətinin çox ciddi, sərt qayda-qanunları şəraitində tanına bildiksə, bunu bacardıqsa, böyük uğurdur.

Fidan xanımın da, mənim də yaradıcılıq yolumuz çətin, maraqlı, mürəkkəb və məhsuldar olub. Keçdiyimiz həyat yoluna, fəaliyyətimizə görə məmnunuq. Hər dəfə sənətdə uğur qazananda valideynlərimizi xatırlayırıq. Onlar təkcə Fidan xanımı "Koroğlu" tamaşasında görə bildilər. O insanlar ki qayğımızı çəkdilər, bizi səhnədə görməyi arzuladılar, bu dünyadan tez köçüb getdilər. Onların yoxluğundan doğan nisgil bizim gözlərimizdə kədərə, qüssəyə döndü...

## Səhnə sənətin nümayiş etdirildiyi meydandır

Azərbaycan xalqı çox istedadlıdır. Bütün sahələrdə bizim həmişə böyük sənətkarlarımız olub. Çox bacarıqlı, istedadlı memarlarımızın, rəssamlarımızın, heykəltaraşlarımızın, musiqiçilərimizin yetirmələri dünyaya çıxır, öz sənətlərini nümayiş etdirirlər. Biz sovetlər ittifaqını təmsil edirdik. Amma hər zaman yazılırdı: Azərbaycan, Bakı. Getdiyimiz ölkələrdə bəlkə bilmirdilər ki, Azərbaycan hansı tərəfdədir. Bizim ifamızı eşidib, azərbaycanlı olduğumuzu biləndən sonra maraqlanır, respublikamız barədə məlumatlar əldə edirdilər. Biz bu gün də tələbələrimizlə xarici ifaçıları təəccübləndirə bilirik. İstedad öz yerində, ancaq onları yetişdirən müəllimlərin əziyyətlərini də danmaq olmaz. Biz bu ifaçıları dünya üçün yetişdiririk. Eyni zamanda onlar azərbaycanlıdırlar. Bunu deyirlərsə, afərin onlara. Əgər söyləmirlərsə, bunu nankorluq hesab edirəm. Mən iyirmi səkkiz ildir Musiqi Akademiyasında kafedra müdiriyəm. Bəlkə də bu illərdə başqa sahələrdə işləyə bilərdim. Amma mənim üçün gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq, onlara klassik vokal sənətinin sirlərini öyrətmək maraqlıdır. Çox mehriban kollektivimiz var. Tələbələrimiz bütün məsləhətlərimizi, tənqid və təriflərimizi qəbul edirlər. Çünki hamısı həm onların, həm də musiqi sənətimizin xeyrinədir. Tənqid olmasa, inkişaf da olmaz. Musiqini sevirlərsə, onu dərindən öyrənməlidirlər. Azərbaycan incəsənətini zirvələrə yüksəldən sənətkarları həyatda görmüş, onlardan dərs almış insanlar hələ var. Gənclərimiz belələrinə müraciət etməkdən, onların məsləhətlərini dinləməkdən çəkinməməlidirlər.

Əgər səhnədə olanda kimsə sənə kənardan baxıb yanlış hərəkətini deməsə, inkişaf etmək, uğur qazanmaq olmaz. Bir də səhnəyə şöhrətə çatmağın asan yolu kimi baxmaq düzgün deyil. Səhnə sənətin nümayiş etdirildiyi meydandır. Artıq zaman elədir ki, biz öz istedadlarımızla, təhsilimizlə zəngin Azərbaycan mədəniyyətini, incəsənətini istər öz ölkəmizdə, istərsə də xaricdə təbliğ etməliyik.

Hər şey kənardan göründüyü kimi deyil. Çətinliklər də var. Kim deyə bilər ki, mənim həyatım hər zaman qayğısız, problemsiz olub? Amma biz əziyyət çəkən və bəhərini görən sənətkarlarıq. Fidan xanım da, mən də ölkəmizə, xalqımıza çox-çox borcluyuq ki, bizə hər zaman dəstək olublar. Bütün çıxışlarımızı alqışlayıblar. Azərbaycan xalqı, Azərbaycan dövləti sənətimizi yüksək qiymətləndirib. Buna görə xoşbəxtik. Yaşasın Azərbaycanın zəngin mədəniyyəti!

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyində şəhid valideynlərinin və Vətən müharibəsi iştirakçılarının bir qrupu ilə görüş

İyulun 6-da Müdafiə Nazirliyinə gəlmiş şəhid valideynlərinin və Vətən müharibəsi iştirakçılarının bir qrupu ilə görüş keçirilib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə müvafiq sərəncamlarla təltif edilənlərə medalların təqdim olunmaması məsələsi sorğu edilib.

Görüş iştirakçılarının nəzərinə çatdırılıb ki, onların hər biri Azərbaycan Respublikasının Prezidentinin sərəncamları ilə bir neçə medalla təltif olunub.

2020-ci ilin dekabrında və 2021-ci ilin iyununda elan olunmuş sərəncamlarla verilmiş medallar artıq hazırlanır və onların aidiyyəti üzrə təqdim olunması prosesinə başlanılıb. Bu günədək Azərbaycan Ordusu üzrə 160 min medaldan yalnız 13 min 300-ü aidiyyəti üzrə təqdim olunub. Təltif olunanların sayının çox olması səbəbindən medalların hazırlanma prosesi müəyyən vaxt aparacaq.

Şəhid ailələri və qazilər dövlətin daim diqqət mərkəzindədir. Müdafiə Nazirliyi və hərbi hissələrin nümayəndələri tərəfindən bu kateqoriyadan olan ailələr mütəmadi ziyarət olunur, onların qayğıları və problemləri ilə maraqlanılır. Əlavə məsələlərlə bağlı müraciət edənlər isə nazirliyin rəsmiləri tərəfindən qəbul olunur və qaldırdıqları problemlərin həlli ilə bağlı müvafiq tədbirlər görülür.

# Azərbaycan BMT missiyasını qəbul etməyə hazırdır

"Azərbaycan tərəfi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMTQAK) arasında aparılmış müzakirələr nəticəsində BMTQAK-ın ölkəmizin münaqişənin təsirinə məruz qalmış ərazilərinə missiyasının həyata keçirilməsi ilə bağlı razılıq əldə edilib".

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

"Azərbaycan humanitar missiyaların həyata keçirilməsi ilə bağlı beynəlxalq hüquq prinsiplərini, xüsusilə də dövlət suverenliyi prinsipini rəhbər tutaraq beynəlxalq missiyaları öz ərazisində qəbul etməyə hazırdır. Bu xüsusda BMTQAK missiyasının azad olunmuş ərazilərimizə həyata keçirilməsi ilə bağlı təşkilatdan konkret məlumatın təqdim edilməsini gözləyirik. Bir daha vurğulamaq istərdik ki, Azərbaycan beynəlxalq hüquq prinsipləri əsasında BMTQAK missiyasını qəbul etməyə hazırdır", - deyə L.Abdullayeva qeyd edib.

# Azərbaycan Ordusunda ehtiyata buraxılan hərbi qulluqçuların yola salınması mərasimi keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il iyulun 1-dən 31-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" müvafiq Sərəncamının icrası Azərbaycan Ordusunda həyata keçirilir.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar işğaldan azad olunan ərazilərdə yerləşən hərbi hissələrdən birində ordudan tərxis olunan hərbi qulluqçuların yola salınması münasibətilə "Əsgər, xidmətinə görə sağol!" adlı tədbir keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbir iştirakçılarına 2016-cı ilin Aprel döyüşləri və 44 günlük Vətən müharibəsinə həsr olunan videoçarx nümayiş olunduqdan sonra döyüş növbətçiliyinə daxilolma mərasimi keçirilib.

Mərasimdə Vətən müharibəsində qazanılan parlaq qələbədən, Azərbaycan əsgər və zabitlərinin qəhrəmanlıq nümunələri göstərərək doğma torpaqlarımızı işğalçılardan azad etməsindən danışılıb. Komandanlığın təbrik-müraciəti hərbi qulluqçulara çatdırılıb, xidmətini başa vurmuş əsgərlər silah və zirehli gödəkçələrini döyüş növbətçiliyinə yeni daxil olmuş əsgərlərə təhvil verərək onlara bu yolda uğurlar və qələbə sevinci arzulayıblar.

Gənc əsgərlər isə silahdaşları adından, özündən əvvəlki döyüşçülərin ənənələrini davam etdirəcəklərinə, ərazi bütövlüyümüzü göz bəbəyi kimi qoruyacaqlarına and içib.

Sonra Vətən müharibəsi zamanı göstərdikləri şücaətə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təltif olunanlara medallar, xidmətdə fərqlənən hərbi qulluqçulara isə fəxri fərman və qiymətli hədiyyələr təqdim edilib.

Tədbirin sonunda ehtiyata buraxılan hərbi qulluqçuların yola salınması münasibəti ilə qurbanlar kəsilib.

# FHN yanında İctimai şuranın növbəti iclası olub

Fövqəladə Hallar Nazirliyi (FHN) yanında İctimai şuranın növbəti iclası keçirilib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda İctimai şuranın sədri Fuad Hacızadə, sədr müavini Mehman İsmayılov və şuranın üzvləri iştirak ediblər.

İclasda FHN yanında İctimai şuranın Əsasnaməsi, fəaliyyət proqramı və reqlamenti müzakirə olunaraq təsdiqlənib.

Daha sonra İctimai şuranın gələcək fəaliyyət istiqamətləri barədə geniş fikir mübadiləsi aparılıb.

## Beynəlxalq aləm



### İran Prezidenti həmvətənlərindən üzr istəyib

İran Prezidenti Həsən Ruhani yaşayış məntəqələrinin elektrik təchizatında baş verən fasilələrə görə həmvətənləri qarşısında üzr istəmişdir.

Ölkənin müxtəlif regionlarında obyektlərin açılışında videokonfrans rejimində çıxış edən Ruhani bildirmişdir ki, son iki-üç həftə ərzində ölkə əhalisini fasiləsiz elektrik enerjisi ilə təmin etmək mümkün olmur. Onun dediyinə görə, əhali fasilələr barədə əvvəlcədən məlumatlandırılmalıdır. Ruhani "Buşəhr" atom elektrik stansiyasının da bir neçə dəfə işini dayandırdığını bildirmişdir. O qeyd etmişdir ki, fasilələr texniki problemlərlə əlaqəlidir və İranın energetika sisteminin müdafiəsinə yönəlmiş məcburi qərardır.

Bu arada elektrik enerjisinin təminatında fasilələrə etiraz olaraq İranın bir neçə şəhərində aksiyalar keçirilmişdir. ISNA informasiya agentliyinin xəbərinə görə, narazı sakinlər Qolestan vilayətinin Kürdkəy, Bəndər Göz, Bəndər Türkmən və Ağqala, habelə Mazandaran vilayətinin Babülsə və Qaimşəhr Amul rayonlarında küçələrə çıxmışlar. Tehranda Elektroenergetika İdarəsi binası qarşısında etiraz aksiyası təşkil edən vətəndaşlar İranın yollar və şəhər tikintisi naziri Məhəmməd İslaminin istefasını tələb etmişlər.

### Mayamidə binanın uçması nəticəsində ölənlərin sayı 28 nəfərə çatmışdır

Amerikanın Florida ştatının Serfsayd şəhərində çoxmərtəbəli yaşayış binasının uçması nəticəsində həlak olanların sayı 28 nəfərə çatmışdır. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, dünən xilasedicilər daha bir meyit aşkar etmişlər. Uçqunlar altında hələ də 117 nəfər qalır.



Floridaya yaxınlaşan "Elza" tropik qasırğasına görə binanın dağılmamış bir hissəsi təhlükəsizlik təminatı olmaması səbəbindən uçurulmuşdur.

Xatırladaq ki, ötən ayın 24-də Serfsayd şəhərində 13 mərtəbə və 270 mənzildən ibarət Champlain adlı bina qəfildən uçmuşdur.

### Dünyada koronavirusdan ölənlərin sayı 4 milyonu ötdü

Yeni tip koronavirus infeksiyasından dünyada ölün hallarının sayı 4 milyon nəfəri keçmişdir. İyulun 6-na olan məlumata görə, COVID-19 səbəbindən artıq 4 milyon 818 nəfər dünyasını dəyişmişdir. Bu barədə "Worldometers" saytı xəbər verir.




Məlumata görə, təhlükəli virusdan ən çox ölüm halı ABŞ-da qeydə alınmışdır - 621335. Sonrakı yerlərdə Braziliya - 525229, Hindistan - 403310, Meksika - 233689, Peru - 193389, Rusiya - 138579, Böyük Britaniya - 128231, İtaliya - 127680, Fransa - 111197 və Kolimbiya - 109466 qərarlaşıb.

Xatırladaq ki, ilk dəfə 2019-cu ilin dekabrında Çində aşkar olunmuş COVID-19 sonradan 200-dən çox ölkəyə və regiona yayılmışdır.

### Somali ordusu Baadveyn şəhərini terrorçulardan təmizləmişdir

Somali ordusu Qalmuduq əyalətindəki Baadveyn şəhərini terrorçu "Əş-Şəbab" qruplaşmasının silahlılarından təmizləmişdir. Bu barədə milli televiziya xəbər verir. Bildirilir ki, yerli qüvvələrin dəstəyi ilə Xareyeri Dxere və İmaamd qəsəbələri azad edilmişdir. Terrorçular hərbçilər gəlməmiş ərazini tərk etmişlər. Bununla da Baadveyn şəhərinə nəzarət tamamilə somalili hərbçilərə keçmişdir.



Son aylar ərzində Somali ordusu "Əş-Şəbab"a qarşı intensiv əməliyyatlar keçirir. Ölkənin müxtəlif yerlərində xeyli sayda kənd və qəsəbə terrorçulardan azad edilmişdir.


"Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsi
"Antidopinq sahəsinə aid sənədlərin tərcüməsi ilə birgə tibb, hüquq, əczaçılıq, ədəbi sənədlərin və digər materialların tərcümə işlərinin yerinə yetirilməsi" xidmətlərinin satın alınmasına dair
***açıq tender elan edir***

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının https://www.etender.gov.az vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 100 manatdır.

Təşkilat: "Azərbaycan Milli Antidopinq Agentliyi" Publik Hüquqi Şəxsi

**VÖEN: 1503403061**
**Bank: "Unibank" CB-nin Mərkəz filialı**
**Kod: 512264**
**VÖEN: 1300017201**
**M/h: AZ46NABZ01350100000000015944**
**S.W.İ.F.T BIK- UBAZAZ22**
**H/h: AZ75UBAZ42284770640090AZN003**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq xidmətlər üzrə uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 30 iyul 2021-ci il saat 11:00-a, tender təklifi və bank təminatını isə 09 avqust 2021-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 10 avqust 2021-ci il saat 11:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar: Bakı şəhəri, İzmir küçəsi, 8,Hyatt Tower III Tel: 599 08 28, Faks: 599 08 29 e-mail: konul.suleymanova@amada.az. Əlaqələndirici şəxs: Hacıyev Emil.

***Tender komissiyası***

**B İ L D İ R İ Ş**

10.06.2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalında (https://www/etender.gov.az) və "Azərbaycan" qəzetinin 11 iyun 2021-ci il tarixli nömrəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən İmmunobioloji dərman vasitələrinin satın alınması üçün elan edilmiş açıq tender (elektron) iddiaçının sorğusu əsasında "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbulu tarixi **12 iyul 2021-ci il saat 11:00-dək,** tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu isə **22 iyul 2021-ci il saat 11:00-dək** uzadılır. Tender üzrə təklif zərflərinin açılışı **23 iyul 2021-ci il saat 11:00-da** keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 26.05.2021-ci il tarixdə etender.gov.az saytında və "Azərbaycan" qəzetinin 27.05.2021-ci il tarixli buraxılışında İnfoqrafika işlərinin satın alınması məqsədilə elan edilmiş açıq tenderdə tender təklifi verən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbilə baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

***Tender komissiyası***

"Bakı Baş Səhiyyə Mərkəzi" Publik Hüquqi Şəxs "21 nömrəli Birləşmiş Şəhər Xəstəxanası" Publik Hüquqi Şəxs, "31 nömrəli Birləşmiş Şəhər Xəstəxanası" Publik Hüquqi Şəxs, "Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası" Publik Hüquqi Şəxs, Yazıçılar poliklinikası, habelə 9 nömrəli Birləşmiş Şəhər Xəstəxanası hüquqi şəxslərin ona qoşulması yolu ilə yenidən təşkil edilmişdir.


# "Magistrant" dövri-elmi jurnalının ilk nömrəsi nəşr olunub

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) 100 illik yubileyi ərəfəsində təsis etdiyi, Ədliyyə Nazirliyində mətbu nəşrlərin dövlət qeydiyyatı reyestrinə daxil edilən, beynəlxalq standart seriya nömrəli (ISSN 2788-6964) "Magistrant" dövri-elmi jurnalının ilk nömrəsi nəşr olunub.

ADPU-dan AZƏRTAC-a bildiriblər ki, jurnalın ilk nömrəsində Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Naxçıvan Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, AMEA-nın institutlarında təhsil alan magistrantların aktual elmi-tədqiqat işlərinin nəticələrini əks etdirən 30 məqalə (Azərbaycan, ingilis və rus dillərində) yer alıb.




Jurnalın baş redaktoru ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanovun rəhbərliyi ilə redaksiya heyətində təmsil olunan nüfuzlu alimlərin rəyləri əsasında çap olunan məqalələr fizika-riyaziyyat, texnika, təbiət, humanitar, ictimai və pedaqoji-psixoloji elmlər sahələrini əhatə edir.

İnanırıq ki, "Magistrant" dövri-elmi jurnalı magistrantların elmi yaradıcılıq fəaliyyətlərinin genişləndirilməsinə və inkişafına töhfə verəcək, elmi-tədqiqat işlərinin nəticələrinin elmi ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynayacaq.

# Dövlət Sərhəd Xidməti narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirir







Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirir.

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, iyulun 5-də saat 23:45 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Cəlilabad rayonunun Sərxanlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində beş nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkar olunub. Sərhəd pozucularının silah və gecəgörmə cihazları ilə silahlanması, onlardan birinin üzərində içərisində narkotik vasitə olması ehtimal edilən bir çanta müşahidə edilib.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən "Dayan" əmrinin verilməsinə və havaya xəbərdarlıq atəşi açılmasına baxmayaraq, sərhəd pozucuları əmrə tabe olmayaraq silahlı müqavimət göstərib və avtomat silahdan atəş açaraq sərhədçilərin həyatına qəsd ediblər.

Sərhəd pozucularının təqibi zamanı sərhəd naryadı tərəfindən "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq silah tətbiq olunub, sərhəd pozucularından biri - hüquq-mühafizə orqanlarının axtarışında olan Azərbaycan vətəndaşı 1992-ci il təvəllüdlü Qurbanov Məzahir Sahil oğlu güllə yarası alıb. Ona ilkin yardım göstərilərək Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına təxliyə edilib, lakin sərhəd pozucusu yolda ölüb. Digər sərhəd pozucuları ərazinin sıx meşəlik, hava şəraitinin qaranlıq olmasından istifadə edərək geri İran ərazisinə qaçıblar.

Əraziyə baxış zamanı sərhəd pozucularının qanunsuz yolla Azərbaycan Respublikası ərazisinə keçirdikləri çantada təxmini çəkisi 6895 qram olan narkotik vasitəyə bənzər maddələr (4065 qram heroin, 1385 qram tiryək, 325 qram metamfetamin, 1000 ədəd metadon-40 həbi, 260 ədəd preqabalin) və dərman preparatları (10 ampula ravit-8, 30 kapsula vellman, 10 ampula testosteron) aşkarlanaraq götürülüb.

Bu barədə İran İslam Respublikası tərəfi dərhal məlumatlandırılıb, hadisə yerində Azərbaycan və İran sərhəd nümayəndələrinin görüşü keçirilib.

Hazırda Dövlət Sərhəd Xidmətinin və Baş Prokurorluğun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

# Ağdamda 2 ədəd yarımstansiya tikilir

“Azərenerji” ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə ölkə Prezidentinin tapşırığına uyğun olaraq “Azərenerji” tərəfindən kompleks işlər həyata keçirilir.






Belə ki, Ağdam rayonunun böyüklüyü və ərazidə iri layihələrin gerçəkləşəcəyi nəzərə alınmaqla burada 2 ədəd 110/35/10 kilovoltluq “Ağdam-1” və “Ağdam-2” yarımstansiyaları tikilir. “Ağdam-1” yarımstansiyası rayon mərkəzinin girişində, keçmiş avtovağzalın yanında, “Ağdam-2” yarımstansiyası isə rayonun Əsgərana yaxın Şelli kəndi istiqamətində inşa edilir. Ən əsası sözügedən yarımstansiyalara “Xındırıstan” yarımstansiyasından 40 km məsafədə iki dövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilir. Bundan əlavə, “Ağdam-1” yarımstansiyasının yaxınlığında “Azərenerji”nin Qarabağ Regional İdarəetmə Mərkəzi də tikilir ki, burada ən müasir rəqəmsal avadanlıqlar yerləşdirilməklə işğaldan azad edilən rayonların avtomatik idarəetməsi reallaşdırılacaq.

“Ağdam-1” yarımstansiyasında işlər sürətlə aparılır. “Ağdam-2” yarımstansiyasında isə artıq işlərin böyük hissəsi görülüb, tikinti yekunlaşma mərhələsinə daxil olub. 40 km məsafədə çəkilən 110 kV-luq elektrik verilişi xəttinin, o cümlədən “Ağdam-1”, “Ağdam-2” yarımstansiyalarının, eləcə də burada inşa edilən Qarabağın Regional İdarəetmə Mərkəzinin tikintisinin yaxın aylarda yekunlaşdırılması planlaşdırılıb.


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərmətbuatyayımı” ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| “Azərpoçt” ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Kaspi” MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün standart tipli fizika, kimya və biologiya laboratoriyası dəstlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun “Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat” cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 29.07.2021-ci il saat10:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 06.08.2021-ci il saat 10:00-dək Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 09.08.2021-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika ərazisində modul tipli məktəblərin quraşdırılması işlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 26 iyul 2021-ci il saat 18:00-a kimi qəbul olunur. Zərflərin açılışı 27 iyul 2021-ci il saat 15:00-da Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanda, Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin akt zalında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Sirac Əliyev (012) 465-73-48 (daxili: 110).

***Tender komissiyası***

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2021-ci il üçün

## *açıq tender elan edir*

LOT 1- “Cari təmir” işlərinin satın alınması.

Tenderdə iştirak etmək üçün iddiaçılar 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmaların vahid internet Portalından əldə edə bilərlər. Əlaqələndirici şəxs: Nəsrullayeva Rübabə Sultəli qızı. Əlaqə telefonu: 012 493-51-24.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Büdcə səviyyə kodu: 7**
**Büdcə təsnifatın kodu: 142333**
**M/Hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**AXUNDOV ADINA MİLLİ KİTABXANA**
**VÖEN: 1700241041**
**Hesab: AZ27CTRE00000000000005468301**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender iştirakçıları öz tender təkliflərini “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq möhürlənmiş, imzalanmış şəkildə Portal vasitəsilə təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, aşağı qiymət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında icrası, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *tender təklifinin təminatı (zərflərin açıldığı gündən 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifı qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tenderin başlama tarixi 06.07.2021-ci il.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 29.07.2021-ci il saat 10:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 06.08.2021-ci il saat 10:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 09.08.2021-ci il saat 10:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələləri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi “Nazirliyin inzibati binasının cari təmiri işlərinin satın alınması” üzrə açıq tender elan edir

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 150 (bir yüz əlli) manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 30 iyul 2021-ci il saat 10:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini isə 09 avqust 2021-ci il saat 10:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 10 avqust 2021-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının və İşlər İdarəsinin kollektivləri Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Faiq Məmmədova anası

**LƏTİFƏ QİYASBƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Faiq Məmmədova anası

**LƏTİFƏ QİYASBƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Mərkəzi Bankın sədrinin müşaviri Əliyar Məmmədyarova anası

**LALƏZAR MƏMMƏDYAROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvü, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Zəhmətkeşlərin əməyinin və sosial-iqtisadi mənafelərinin müdafiəsi üzrə şöbəsinin müdiri Çingiz Tağıyevə bacısı

**SƏİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecinin və Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin direktorları Akif Cahangirov və Bəxtiyar Bəxtiyarov Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 3837
Sifariş 1216
Qiyməti 40 qəpik